QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

*Qəzet 1991-ci il yanvarın 11-dən çıxır*

№ 086 (5558) 4 **may** 2018-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# Azərbaycanda sabitliyin təminatçısı Azərbaycan xalqıdır

*Prezident İlham Əliyev: "Azərbaycan bu gün dünya miqyasında sabitlik məkanı, sabitlik adası kimi tanınır və bu, bizim böyük nailiyyətimizdir"*

Səh 2



**Tarix yaradan ŞƏXSİYYƏT**



3

**"Ramiz Mehdiyev. Biblioqrafiya" kitabının təqdimatı olub**



4

**Baş nazir Novruz Məmmədov ABŞ Konqresinin nümayəndə heyəti ilə görüşüb**



5

**"Söz və mətbuat azadlığı Azərbaycanın ən başlıca prinsiplərindən biridir"**



7

**Bəhruz Quliyev: "Azərbaycanda söz və mətbuat azadlığı yetərincə təmin edilib"**



7

**Ermənistana gələn turistlər geri qayıdır, yaxud etirazlara qoşulur**



13

11

**Erməni cəmiyyəti başını itirib**



8

**Aydın Hüseynov: "Ermənistanın yeganə xilas yolu işğalçı siyasətdən əl çəkməkdir"**



16

**"Liverpul" Çempionlar Liqasının finalında!**



səs

www.sesqazeti.az

facebook Ses Media Holding

4 may 2018-ci il

# Azərbaycanda sabitliyin təminatçısı Azərbaycan xalqıdır

## *Prezident İlham Əliyev: "Azərbaycan bu gün dünya miqyasında sabitlik məkanı, sabitlik adası kimi tanınır və bu, bizim böyük nailiyyətimizdir"*

***Dünyanın müxtəlif bölgələrində qanlı toqquşmaların, vətəndaş müharibələrinin, dövlət çevrilişlərinin baş verdiyi halda Azərbaycanda xalq təhlükəsizlik şəraitində yaşayır. Məhz, Prezident İlham Əliyevin apardığı düzgün məqsədyönlü siyasəti nəticəsində ölkəni gözləyən müdaxilələrin, xarici risklərin qarşısı alınır. Prezident İlham Əliyevin sözləri ilə desək, Azərbaycan xalqı bu 15 il ərzində sabitlik şəraitində yaşamışdır: "Bu da inkişafımız üçün əsas şərtdir.***

Biz görürük ki, sabitlik pozulanda inkişafdan söhbət gedə bilməz. Sabitlik pozulanda xarici müdaxilə baş verir, ölkələr idarəolunmaz vəziyyətə düşür, qardaş qanı tökülür və ölkələrin gələcəyi böyük sual altına düşür. Azərbaycanda sabitliyin təminatçısı Azərbaycan xalqıdır və bizim siyasətimizdir. Ona görə xalq-iqtidar birliyi bizim uğurlarımızın əsas şərtidir. Azərbaycan bu gün dünya miqyasında sabitlik məkanı, sabitlik adası kimi tanınır və bu, bizim böyük nailiyyətimizdir".

Milli Məclisdə keçirilən andiçmə mərasimində Ona göstərdikləri dəstəyə, inama, etimada görə, Azərbaycan xalqına minnətdarlıq edərək, dinamik inkişafın qarşıdakı illərdə də davam edəcəyini bildirən Prezident İlham Əliyevin "Mən həmişə Azərbaycan xalqının dəstəyini hiss etmişəm və hiss edirəm. Bu dəstək mənə güc verir. Mən bu dəstəyə arxalanıram və xalqı bir daha əmin etmək istəyirəm ki, bundan sonra da xalqa və Vətənə ləyaqətlə xidmət edəcəyəm" sözləri ölkədə sabitliyin əsas şərti olan xalq-iqtidar birliyinin əbədiliyini təsdiqləyir.

Əhalinin həmrəylik və birliyinin nümunəsi olan, mütəşəkkilliklə keçirilən prezident seçkiləri Azərbaycan demokratiyasının təntənəsi idi. Bu inkişaf artıq bütün mötəbər beynəlxalq təşkilatlar tərəfindən qiymətləndirilir. Ölkəmiz rəqabətqabiliyyətliliyə görə dünya miqyasında 35-cu yerdədir. İnkişafın Azərbaycan modeli müsbət təcrübə kimi öyrənilir. Ölkədə yaranan sabitlik nəticəsində Azərbaycan xarici siyasət sahəsində də böyük zirvələrə çatıb. Qlobal problemlərin həlli ilə məşğul olan ölkəmizin mövqeyi, qazandığı nüfuz qüdrətli ölkələr üçün belə örnəkdir. Bu dəstək Azərbaycanın BMT Təhlükəsizlik Şurasına üzv qəbulu zamanı özünü büruzə verdi və 155 dövlət ölkəmizlə həmrəyliyini etimad göstərməklə təsdiqlədi. Bu dəstək həm də, ölkədə sabitliyə verilən dəyər idi.

Faktdır ki, Qərb siyasətinin əsasını təşkil edən islamofobiya kimi təhlükəli meyillər İslam aləmində xoşagəlməz fəsadlarla nəticələnir.



Özlərinə yaxın bildikləri müsəlman ölkələrini belə məqamı gəldikdə əzib keçməkdən çəkinməyən "xristian dünyasının sayılıb-seçilmişləri"nin Mərakeşdə, Əlcəzairdə, Tunisdə, Misirdə, İraqda, Suriyada... bir sözlə, Yaxın Şərqdə törətdikləri vətəndaş müharibələri, daxili çəkişmələr, dini təriqətlər arasındakı ixtilaflar nəticəsində bu ölkələrin varlığı belə təhlükə altına qoyuldu. Doğma yurdlarını tərk edən müsəlmanlar münaqişələri törədənlərdən mərhəmət gözləsələr də, nəsibləri təhqir, əzab, əziyyət oldu. Təsirləri altına almaq istədikləri ölkələrdə iğtişaşlara ilk mərhələ olaraq kütlələrin şüuruna "üsyan etmək vətəndaşların hakimiyyətin qəsb edilməsinə müqavimət göstərməsi kimi təbii hüququdur" kimi qorxulu tendensiya yeridilməsi ilə başlayan Qərb ideoloqları mükəmməl hazırlanmış texnologiyalardan çox "ehtiyatla, zərərli məqsədlərini bəlli etmədən" bəhrələndilər. Həmin texnologiyaların müəllifləri və bu cür aksiyaların hazırlanma mexanizmləri isə artıq məlumdur. Qəribə də olsa demokratik səsvermə və seçki prosedurları nəticəsində hakimiyyətə gəlmiş hökumətlərə qarşı müqavimət daha güclü oldu. Bəllidir ki, Qərbin məqsədi müsəlman ölkələrinin müstəqil inkişafının qarşısını almaq, onları daxili çəkişmələrə sövq etmək, yerüstü və yeraltı sərvətlərini nəzarətdə saxlamaqdır.

Azərbaycanın müstəqilliyinin ilk günlərindən rastlaşdığı vəziyyəti xatırlayaq. Qərblə tərəfdaşlıq, bərabərhüquqluluq, qarşılıqlı etimad prinsiplərinə əsaslanan əlaqələr qurmaq üçün davamlı cəhdlər etsə də təəssüf ki, ölkəmizin bu səmimi münasibəti Qərb tərəfindən lazımınca qiymətləndirilmirdi. Hadisələrdən çıxarılan nəticə bu idi ki, Qərbin siyasəti beynəlxalq hüquqa deyil, əksər hallarda güc prinsipinə əsaslanır. Qərbin Azərbaycana ögey münasibətinin əsasında da İslam dünyasına rəqib baxışlar davamlı olub. Azərbaycan müstəqil siyasət yürütmək haqqına, beynəlxalq hüquqa, milli dəyərlərə və digər bu kimi prinsiplərə etinasızlıq göstərən, öz fəaliyyətini tabeçilik, diktat və "böyük-kiçik" prinsipləri, sivilizasiyaların toqquşması ideologiyası üzərində quran Qərb strukturlarının ögey yanaşmasını görərək xarici siyasətini qarşılıqlı münasibətlərə uyğun formalaşdırdı. Bu gün Yaxın Şərqdə həyata keçirilən çirkin ssenarilər bir zamanlar Azərbaycan üçün də hazırlanmışdı. 2011-2012-ci illərdə bəzi xarici dairələr Azərbaycanda "Ərəb baharı"nın olacağından söhbət açırdılar və deyirdilər ki, bu, qaçılmazdır. Burada vəziyyəti gərginləşdirmək, sabitliyi pozmaq üçün planlar, ssenarilər hazırlanırdı. Azərbaycanda "Maydan hərəkatı"nı yaratmaqla vəziyyəti gərginləşdirmək üçün böyük pullar xərcləndi. 2013-cü ilin əvvəlindən başlayaraq bu proseslər daha ciddi formalar almışdı. Prezident seçkiləri ərəfəsində vəziyyəti gərginləşdirmək, sabitliyi pozmaq, Azərbaycanı məhv etmək cəhdləri aktuallaşırdı. Azərbaycanın müstəqilliyini, ərazi bütövlüyünü, vətəndaşlarının təhlükəsizliyini və cəmiyyətin inkişafını qorumaq, xarici siyasətində qarşılıqlı əməkdaşlığa hörmətlə yanaşmağa çalışan Azərbaycan xalqı mənfur niyyətlərin qarşısını xalq-iqtidar birliyi sayəsində alaraq xarici siyasətinin prinsiplərinə dönmədən riayət edir, bir çox ənənəvi tərəfdaş ölkələrlə əlaqələr yaratmaqla, əməkdaşlıq coğrafiyasını genişləndirir. Çəkilən zəhmətin bəhrəsi isə sabitlik diyarı kimi tanınan müasir Azərbaycandır.

"Biz son 15 il ərzində beynəlxalq təşkilatlar çərçivəsində çox fəal iştirak etmişik, bundan sonra da fəal iştirak edəcəyik" söyləyən Prezident İlham Əliyevin vurğuladığı kimi, beynəlxalq təşkilatlar sülh tərəfdarı olan Azərbaycanın Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı ədalətli mövqeyini də dəstəkləyir. Prezident İlham Əliyevin siyasi qətiyyəti, iradəsi nəticəsində bütün sənədlərdə, bəyanatlarda bildirilir ki, münaqişə ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. BMT-nin Baş Assambleyası, Qoşulmama Hərəkatı, Avropa Şurası Parlament Assambleyası, Avropa Parlamenti, İqtisadi Əməkdaşlıq Təşkilatı, GUAM və digər təşkilatlar status-kvonun yolverilməzliyini bildirməklə, ərazilərin toxunulmazlığını da bəyan edir, münaqişə ilə bağlı ölkəmizin mövqeyi dəstəklənir.

Təbii ki, BMT Təhlükəsizlik Şurası və ATƏT tərəfindən qəbul olunmuş qətnamələr münaqişənin həlli üçün hüquqi baza yaradır. Beynəlxalq hüquq normalarının həllinə "kim güclüdür, o da haqlıdır" mövqeyindən yanaşıldığı, ədalətin arxa plana keçirildiyi hallarda hadisələrə ikili standartlardan yanaşma prinsipinin üstünlük təşkil etdiyi bir zamanda müstəqilliyini qorumaqla ən önəmli enerji və nəqliyyat layihələrini reallaşdıran Azərbaycanın risklərdən, təhlükələrdən qorunması düşünülmüş siyasətin təntənəsidir. Müstəqil, yenilməz, min illərlə qorunub saxlanılan dövlətçilik ənənələrinə sadiq qaldığını 11 apreldə ən ləyaqətli namizəd Cənab İlham Əliyevin ətrafında sıx birləşməklə bildirən Azərbaycan xalqı gələcək üçün milli ideologiyamızın dövlət siyasətinin əsas istiqamətləri olduğunu da təsdiqlədi. Bütün dünya ictimaiyyəti, beynəlxalq müşahidəçilər Cənab İlham Əliyevin söylədiyi sözlərin reallaşdığını etiraf etdilər: "Azərbaycançılıq məfkurəsi Azərbaycanda tam bərqərar olub, Azərbaycan xalqı vahid milli ideya ətrafında birləşib və ölkəmiz çox uğurla inkişaf edir. Azərbaycanda dinlərarası, millətlərarası münasibətlər nümunəvi xarakter daşıyır. Azərbaycanda bütün xalqların, dinlərin nümayəndələri bir ailə kimi mehribanlıq şəraitində yaşayır və bundan sonra da yaşayacaqdır".

***"Səs" Analitik Qrupu***

## *Rəsmi xronika*

Prezident İlham Əliyev Ağstafa rayonunun Kolayır-Düzqışlaq-Mollacəfərli-Xılxına-Qarahəsənli avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev "Azərbaycan Respublikası dövlət sərhədinin buraxılış məntəqələrindən keçirilən malların və nəqliyyat vasitələrinin yoxlanılmasında "bir pəncərə" prinsipinin tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 11 noyabr tarixli 12 nömrəli fərmanında dəyişiklik edilməsi barədə Fərman imzalayıb.

***

Prezident İlham Əliyev "2018-2025-ci illərdə Azərbaycan Respublikasında şərabçılığın inkişafına dair Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev "2018-2025-ci illərdə Azərbaycan Respublikasında şərabçılığın inkişafına dair Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev "Azərbaycan Respublikası dövlət sərhədinin buraxılış məntəqələrindən keçirilən malların və nəqliyyat vasitələrinin yoxlanılmasında "bir pəncərə" prinsipinin tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 11 noyabr tarixli 12 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə Fərman imzalayıb.

***

Prezident İlham Əliyev "Azərbaycan Respublikası Gömrük Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 15 sentyabr tarixli 499 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında Fərman imzalayıb.

***

Prezident İlham Əliyev "Körpələrin və erkən yaşlı uşaqların qidalanması haqqında" Azərbaycan Respublikası Qanununun icrasının təmin edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 12 fevral tarixli 25 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında Fərman imzalayıb.

***

Prezident İlham Əliyev Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 24 iyun tarixli 609 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında idxal-ixrac əməliyyatlarının tənzimlənməsi Qaydaları"nda dəyişiklik edilməsi haqqında Fərman imzalayıb.



# Tarix yaradan ŞƏXSİYYƏT

***Bu günlərdə Ümummilli Lider, Türk dünyasının əfsanəsi, görkəmli ictimai xadim Heydər Əliyevin anadan olmasının 95 illik yubileyi ərəfəsindəyik. Bu böyük dühanın işığında Azərbaycan dövləti özünün ən parlaq səhifələrini yaşadı və yaşamaqdadır. İstər Sovetlər dönəmində, istərsə də müstəqil Azərbaycanın yeni tarixində Ulu Öndər Heydər Əliyev imzası, müstəqil Azərbaycan dövlətinin imzası dünya siyasi məkanında öz layiqli yerindədir. Bu siyasi iradəni ancaq və ancaq siyasət nəhəngi Heydər Əliyev reallaşdırdı. Üçrəngli bayrağımızın səmada dalğalanmasının sevincini bizlərə bəxş edən böyük insanın qarşısında baş əyirik.***

Türk dünyasının görkəmli oğlu, Ulu Öndərimiz Heydər Əliyevin irsi zaman keçdikcə daha da zənginləşir və dünya siyasi mənzərəsini izlədikcə Ümummilli Lider Heydər Əliyevin Azərbaycan xalqının qarşısındakı xidmətlərinin ölçüyəgəlməz dərəcəsini hiss edirsən. Həyatımızın bütün sahələrində bu böyük dühanın bizə qoyub getdiyi firavan, müstəqil və azad ölkəmizin gələcəyini görürük.

Əlbəttə, Onun həyat və fəaliyyətində ibrətverici məqamlar saysız və ölçülməzdir. Heydər Əliyev nadir tarixi şəxsiyyətlərdəndir ki, mükəmməl dövlət quruculuğu konsepsiyasını işləyib reallaşdıra bildi və xalqımızı, təhlükədə olan Azərbaycanı böyük bir fəlakətdən xilas etdi, itirilməkdə olan Azərbaycanı bizə, o cümlədən, gələcək nəsillərə yenidən bəxş etdi. Heydər Əliyev Azərbaycanın dünyada layiqli yerini tutması üçün uzun illər çalışdı, müstəqil Azərbaycanın Memarı və Qurucusu kimi tarixdə yerini tutdu. Unudulmaz Lider Heydər Əliyev Türk və müsəlman dünyasının mübaliğəsiz Lideridir. Bunu dünya ölkələrinin liderləri öz memuarlarında fəxrlə yazmışlar.

Xalqımızın Ümummilli Lideri Heydər Əliyev müasir Azərbaycan dövlətçiliyinin siyasi və iqtisadi əsaslarını yaradan tarixi şəxsiyyət, nüfuzlu rəhbər kimi çağdaş tariximizdə imzasını polad hərflərlə həkk etmişdir. Dünya liderləri siyahısında ən başda yer alan bu şəxsiyyət, ictimai-siyasi xadim Heydər Əliyevin fəaliyyəti, qətiyyəti, möhkəm siyasi iradəsi nəticəsində müasir Azərbaycan dövləti qurulmuş və ölkəmiz dünya məkanında öz layiqli yerini tutmuşdur.

Hələ ölkəmizin Sovetlər Birliyinin tərkibində olduğu zaman Ulu Öndərin gərgin fəaliyyəti və qətiyyəti sayəsində Azərbaycanın uzunmüddətli, dinamik və hərtərəfli inkişafını təmin edəcək kompleks inkişaf proqramlarının icrasına başlanmış, iqtisadi və digər sahələrdə SSRİ rəhbərliyi səviyyəsində əlverişli qərarların qəbuluna nail olunmuşdur. Təkcə onu qeyd etmək kifayətdir ki, 1969-1982-ci illərdə Azərbaycanda elektron maşınqayırması, yüngül və yeyinti sənayesi üçün maşın və avadanlıq istehsalı və digər mütərəqqi sənaye sahələri yaranmışdı. Sənayenin inkişafında elmi-texniki tərəqqinin nailiyyətlərinin geniş tətbiqi nəticəsində 1971-1985-ci illərdə 581 adda yeni tipli maşın, avadanlıq, aparat və cihaz nümunələri yaradılmışdı. Azərbaycanda buraxılan 350 adda məhsul dünyanın 65 ölkəsinə ixrac olunurdu. Bütün bu fəaliyyətlər öz xalqını sevən bir şəxsin onun üçün etmək istədikləri, eyni zamanda, xalqının gələcəyini düşünməsindən irəli gəlirdi. Təbii Azərbaycan Sovet Sosialist Respublikası SSRİ tərkibində olduqda, ölkəmizə bir çoxları rəhbərlik edib. Lakin 1970-ci ildən sonra rəhbərliyə gətirilən Ulu Öndər Heydər Əliyev bu xalq üçün nələr etdiyini istər elmi, texniki, siyasi, mədəni və ədəbi cəhətdən araşdırdıqca, bu fəaliyyətlərin dərinliyində itib batırsan. Bu böyük dühanın bu günümüzə hesablanan addımlarını düşündükcə, xalqına və millətinə bu qədər bağlı olan bir Lideri bizə, məhz Azərbaycan xalqına bəxş etdiyinə görə Rəbbimizə dualar oxuyuruq.

Beləliklə, ötən əsrin 90-cı illərinin tarixi bizə hər şeyin açıq ssenarisini verir. Həmin illər Azərbaycan tarixin yaratdığı şansdan yararlanaraq, yenidən dövlət müstəqilliyinə qovuşdu. Lakin müstəqilliyin ilk illərində hakimiyyətə yiyələnən naşı və səriştəsiz şəxslərin yaritmaz idarəçiliyi nəticəsində ölkədə hərc-mərclik, anarxiya yarandı və separatçılıq meyilləri güçləndi. Digər tərəfdən, Ermənistanın işğalçılıq siyasəti nəticəsində Azərbaycan ərazisinin 20 faizinin zəbt olunması və bunun nəticəsində bir milyondan artıq soydaşımızın doğma yurd-yuvasından didərgin düşməsi sosial-iqtisadi böhranı daha da dərinləşdirdi. Belə bir şəraitdə dahi şəxsiyyət, bütün həyatını xalqına və Azərbaycanın müstəqil dövlət quruculuğuna həsr etmiş Heydər Əliyevin hakimiyyətə qayıdışı ölkənin yeni inkişaf dövrünün əsasını qoydu. Xalqın iradəsi və təkidli tələbi ilə 1993-cü ildə siyasi hakimiyyətə qayıdan Ulu Öndər Azərbaycanı xaos və böhrandan çıxardı, vətəndaş müharibəsinin qarşısını aldı, atəşkəsə nail oldu və Böyük Xilaskar missiyasını yerinə yetirdi. Heydər Əliyevin hakimiyyətə qayıtması ilə, bütün sahələrdə olduğu kimi, ölkəmizin iqtisadi həyatında da taleyüklü dəyişikliklərin əsası qoyuldu, Azərbaycan dövlətini və ölkə iqtisadiyyatını labüd fəlakətdən, hərc-mərclikdən xilas edən Heydər Əliyev ölkənin iqtisadi yüksəlişi üçün təcili tədbirlər görməyə başladı.

Ermənistanın təcavüzü nəticəsində öz doğma yurd-yuvasından didərgin düşmüş qaçqınların və məcburi köçkünlərin sosial müdafiəsi daim Ulu Öndərin diqqət mərkəzində olmuşdur. Məhz Heydər Əliyevin təşəbbüsü ilə qaçqın və məcburi köçkünlərin maddi vəziyyətinin və yaşayış şəraitinin yaxşılaşdırılması məqsədilə bir sıra fərman və sərəncamlar imzalanmışdır. Ümummilli Liderin müdrik qərarı ilə Dövlət Neft Fondundan ilk vəsait, məhz qaçqın və məcburi köçkünlərin sosial-məişət şəraitinin yaxşılaşdırılmasına yönəldilmişdir. Məcburi köçkünlərin çadırlardan müasir evlərə köçürülməsi, onların haqq səsinin dünyaya və beynəlxalq təşkilatlara çatdırılması sahəsində ilk addımları da Heydər Əliyev atmışdır.

Ümummilli Liderin xarici siyasət strategiyasında da özünəməxsus gedişlər hər zaman kino lenti kimi dünya siyasi səhnəsində təcrübə kimi öyrənilməkdədir. Siyasi cəhətdən bütün dünya liderləri Onun yanında daha zəif görünürdü. Ulu Öndər Heydər Əliyev dövrün çağırışlarına cavab verən xarici siyasi strategiyanı müəyyənləşdirməkdə təkrarsız revanşları, ölkəmizi əhatə edən geosiyasi reallığı dəqiqliklə nəzərə almaq bacarığı və ən əsası isə, xarici siyasət strategiyasında öz xalqının mənafeyini qorumaq, xalqımızın zəngin dövlətçilik tarixinin başlıca məqamlarını zərgər dəqiqliyi ilə hesablaması və bu prinsipləri masaya oturtması idi. Və bu prinsiplər Azərbaycanın faktiki olaraq xarici siyasətin bütün istiqamətlərində uğur qazanmasına səbəb olan amillər idi. Azərbaycan Cənubi Qafqazın lider dövləti olduğu kimi, Heydər Əliyev də Cənubi Qafqazın SİYASİ LİDERİ idi. Dünyanın supergüc dövləti ABŞ-ın sabiq prezidenti Bill Klinton (Heydər Əliyevə müraciətlə) "Cənab Prezident, Siz bizə çox lazımsınız. Qafqazda və Mərkəzi Asiya regionunda sülhün və sabitliyin bərqərar olunmasında Sizin xidmətlərinizi yüksək qiymətləndiririk". Bəli, Heydər Əliyev siyasi səhnədə regona təsir edəcək bir gücə malik LİDER idi.

Ulu Öndərin vaxtilə söylədiyi "Heç kəsin şübhəsi olmasın ki, ömrümün bundan sonrakı hissəsini harada olursa-olsun, yalnız və yalnız Azərbaycan Respublikasının müstəqil dövlət kimi inkişaf etməsinə həsr edəcəyəm" kəlamı bu gün də xalqımız tərəfindən qürurla xatırlanır. Elə real həyatda da Ulu Öndər istər sovet dövrü rəhbərliyində, istərsə də müstəqil Azərbaycanın siyasi həyatında bütün ömrünü xalqına həsr etdi.

Və nəhayət, son nəfəsinədək yalnız Azərbaycanı, özündən sonra Ona güvənən millətin taleyini kimə həvalə edəcəyini düşünən Ulu Öndərimiz Heydər Əliyev son vəzifəsini də layiqincə yerinə yetirdi. Azərbaycana Cənab İlham Əliyev kimi Lider bəxş etdi. Onun dövlət quruculuğu kursunu Azərbaycan Prezidenti İlham Əliyev böyük uğurla inkişaf etdirir.

Bu gün Prezident İlham Əliyevin ətrafındayıq, böyük sevgi və inamla... Cənab İlham Əliyevin ətrafında xalq sevgisi, güc, inkişaf və xoş gələcək var... Baxmayaraq ki, müstəqillik qazandığımız heç də böyük tarix deyil, amma bu illər ərzində görülmüş işlərə nəzər salanda, bir daha əmin olursan ki, qısa bir vaxtda böyük uğurlara imza atmaq mumkündür. Azərbaycanda müstəqillik illərində görülmüş işlər və nəzərdə tutulmuş layihələr bir daha göstərir ki, bu ölkənin güclü ordusu, möhkəm iradəli vətəndaşları, Dahi Öndəri, unudulmaz şəxsiyyətləri və layiqli ölkə Başçısı var.

Bu gün Prezident İlham Əliyevin məqsədyönlü, qətiyyətli və cəsarətli çıxışları ilə Azərbaycanın Avropa məkanında nüfuzunun artmasında, türk dünyasının əvəzsiz Lideridir.

Azərbaycan Prezidenti İlham Əliyevin dövlətin inkişafı, xalqın firavan yaşaması naminə gördüyü işlər göz qabağındadır. Bu gün Azərbaycan xalqı vahid amal ətrafında ölkəmizin başçısının ətrafında birləşib. Bu birlik müstəqilliyimizi daha da gücləndirir. Aprel döyüşləri bizim şanlı hərbi qələbəmiz, dövlətimizin, xalqımızın və ordumuzun gücünü göstərən qələbədir. Aprel döyüşləri nəticəsində Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının işğaldan azad edilmiş ərazilərində bu gün Azərbaycan bayrağı dalğalanır.

Ümummilli Liderin möhkəm təməlini yaratdığı xarici siyasət kursunun Prezident İlham Əliyev tərəfindən böyük uğurla davamının nəticəsidir ki, indi Azərbaycanın səsi dünyanın ən mötəbər tribunalarından gəlir, üçrəngli bayrağımız yüksəklərə qaldırılır. Azərbaycanın 2011-ci ilin sonlarında 155 ölkənin etimadını qazanaraq BMT-nin Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsi ölkəmizin beynəlxalq aləmdə getdikcə artan nüfuzunun və sürətli iqtisadi inkişafının daha bir göstəricisidir. Prezident İlham Əliyevin bəyan etdiyi kimi, hazırda qarşıda duran ən başlıca məqsəd Azərbaycanı inkişaf etmiş dövlətlər səviyyəsinə çatdırmaqdır. Dövlət başçısının 29 dekabr 2012-ci il tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası qarşıya qoyulmuş mühüm vəzifələrin yerinə yetirilməsində mühüm rol oynayacaqdır.

Azərbaycan Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi: "Heydər Əliyev bütün zamanlarda, bütün dövrlərdə Azərbaycan xalqına ləyaqətlə xidmət etmişdir. Azərbaycanın müstəqilliyinin əbədi, dönməz olmasında, iqtisadi potensialının möhkəmlənməsində, bölgədə və dünyada nüfuzunun artmasında Onun müstəsna xidmətləri var. Hazırda bu siyasət davam etdirilir. Bu gün Heydər Əliyev bizimlə deyil, ancaq Onun siyasəti yaşayır, Onun qurduğu müstəqil Azərbaycan yaşayacaqdır".

***Mehriban Abasquliyeva,***
***Yeni Azərbaycan Partiyasının Sabunçu rayon təşkilatının sədri***

# "Ramiz Mehdiyev. Biblioqrafiya" kitabının təqdimatı olub

***Mayın 3-də Mədəniyyət Nazirliyi və Milli Kitabxana tərəfindən Azərbaycan, rus və ingilis dillərində çap olunmuş "Ramiz Mehdiyev. Biblioqrafiya" kitabının və eyniadlı elektron məlumat bazasının təqdimatı keçirilib. AZƏRTAC xəbər verir ki, yenidən tərtib edilmiş bu fundamental biblioqrafiyaya Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevin son 10 ildə Azərbaycan, rus, ingilis, türk və digər xarici dillərdə nəşr edilmiş kitabları, elmi konqres, sessiya, konfrans materiallarında və dövri mətbuatda dərc edilmiş elmi-publisistik məqalələri, çıxışları və müsahibələri haqqında biblioqrafik məlumatlar daxil edilib.***



Tədbirdə Azərbaycan Dillər Universitetinin rektoru, akademik Kamal Abdulla "Azərbaycanın görkəmli şəxsiyyətləri" seriyasından çap olunmuş kitabın böyük əhəmiyyət daşıdığını söyləyib. Bildirib ki, bu, təkcə bir kitab haqqında tədbir deyil, bütövlükdə kitablar haqqında tədbir olduğu üçün ikiqat məna kəsb edir. "Nəşrdə akademik Ramiz Mehdiyevin görkəmli elm və dövlət xadimi kimi bütöv obrazı öz əksini tapıb. Kitab təkcə Ramiz müəllimin əsərlərinin adının çəkildiyi məcmuə deyil, eyni zamanda, analitik bir tədqiqat işidir, akademikin çoxşaxəli və dərin mahiyyətə malik yaradıcılığına baxışdır. Onun Azərbaycan fəlsəfə tarixinə, cəmiyyətşünaslığına zaman-zaman verdiyi töhfələri araşdıran, qruplaşdıran bir tədqiqatdır. Burada akademikin əsərləri ilə yanaşı, həm də onun haqqında və əsərləri barədə yazılanlar da öz əksini tapıb. Bu vəsait faktiki olaraq bir salnamədir, bir dövrün salnaməsidir. Azərbaycanın müstəqilliyə keçid dövrünün həm mənəvi, həm mədəni, həm də ictimai salnaməsidir. Bir şəxsin timsalında biz bu keçidin ən müxtəlif təzahür formalarını görürük. Biz bütün bunlarla tanış olduqdan sonra Ramiz Mehdiyevin gördüyü işlərə təəccüblənməyə bilmirik. Həqiqətən də, titanik bir zəhmət nəticəsində Ramiz müəllim əsl elm fədaisi, dövlət qulluğunda çalışan şəxsiyyət kimi çox böyük və möhtəşəm uğurlara imza atıb. Ulu Öndərin Azərbaycan üçün müəyyənləşdirdiyi yolun sadiq və layiqli davamçısı olan Ramiz Mehdiyev bu gün də Prezident İlham Əliyevin silahdaşı kimi quruculuq işləri ilə məşğuldur", - deyə Kamal Abdulla vurğulayıb.

"Ramiz Mehdiyev. Biblioqrafiya" kitabının ərsəyə gəlməsində əməyi olan hər kəsə təşəkkürünü bildirən K.Abdulla deyib ki, bu kitab ali məktəblərdə, akademiyanın institutlarında öyrəniləcək və tədqiq olunacaq.

Tədbirdə çıxış edən Milli Kitabxananın direktoru, professor Kərim Tahirov deyib ki, Ramiz Mehdiyev haqqında ilk biblioqrafiya Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin qərarı ilə Azərbaycan Dövlət İnformasiya Agentliyi (AZƏRTAC), Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Mərkəzi Elmi Kitabxanası və M.F.Axundzadə adına Milli Kitabxana tərəfindən Azərbaycan, rus və ingilis dillərində tərtib edilmişdi. Azərbaycan Milli Kitabxanası tərəfindən yenidən nəşr olunan bu fundamental elmi biblioqrafiya daha da təkmilləşdirilib və buraya son on ilin materialları əlavə olunub.

Bildirilib ki, filosof alimin geniş ictimai-siyasi fəaliyyətini işıqlandırmaq məqsədilə biblioqrafik göstəricidə AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəylinin "Görkəmli dövlət xadimi və cəmiyyətşünas alim" adlı "Ön söz"ü verilib. "Azərbaycanın dövlət, elm və mədəniyyət xadimləri Ramiz Mehdiyev haqqında" bölməsinə akademiklərdən Akif Əlizadə, Mahmud Kərimov, Arif Mehdiyev, Asəf Nadirov, Bəkir Nəbiyev, Ağamusa Axundov və digər görkəmli alim və ictimai-siyasi xadimlərin fikirləri, mülahizələri daxil edilib. "Əsərlərin biblioqrafiyası" bölməsində akademik Ramiz Mehdiyevin kitabları, elmi məqalələri əhatə olunub, bəzi informasiya xarakterli materiallar da yer alır.




Görkəmli alimin əsərləri və haqqında olan materiallar "Həyatı və elmi-ictimai fəaliyyətinin əsas tarixləri", "Redaktoru, elmi məsləhətçisi və buraxılışına məsul olduğu nəşrlər" və "Həyatı, ictimai-siyasi fəaliyyəti, əsərləri haqqında" adlı bölmələrdə verilib. Biblioqrafik vəsaitdə ilk dəfə olaraq dünyanın 30-dək milli kitabxanasından akademikin əsərləri barədə məlumatlar toplanılıb. Biblioqrafiyaya daxil edilmiş materiallar xronoloji ardıcıllıqla verilib və əlifba sırası ilə qruplaşdırılıb. Sonra tədbir iştirakçılarına Ramiz Mehdiyev haqqında hazırlanmış elektron məlumat bazası təqdim edilib.

AMEA-nın vitse-prezidenti, akademik, kitabın "Ön söz" müəllifi İsa Həbibbəyli çıxışında Ramiz Mehdiyevi görkəmli alim və dövlət xadimi kimi xarakterizə edib. Ramiz Mehdiyevin dövlətçilik tariximizdə gördüyü işlərdən danışan akademik onun əsərlərinin sanballı, elmimiz və milli-mənəvi dəyərlərimiz üçün mühüm əhəmiyyət kəsb etdiyini söyləyib.

"Milli Kitabxana çoxillik təcrübəsi əsasında akademik Ramiz Mehdiyevə həsr edilmiş ümumiləşmiş ciddi və sanballı bir biblioqrafiya hazırlayıb. Bu kitabda Ramiz müəllimin çoxillik elmi, ictimai-siyasi fəaliyyəti küll halında ümumiləşmiş şəkildə təqdim olunur. İlk dəfədir ki, Ramiz müəllimin fəaliyyəti haqqında bu qədər əhatəli, xronoloji şəkildə hazırlanmış nəşrlə tanış oluruq. Burada akademikin çoxsaylı əsərləri, təhlilləri və monoqrafiyaları göstərilir. Onun elmi fəaliyyəti və əsərlərinin sistematikası bu kitabın fonunda Ramiz Mehdiyev haqqında söz deməyə əsas verir. Ramiz Mehdiyev ulu öndər Heydər Əliyev məktəbinin yetişdirib formalaşdırdığı görkəmli dövlət xadimidir. O, demək olar ki, həyatının böyük hissəsini ümummilli lider Heydər Əliyevin silahdaşı kimi dövlətçiliyimizin möhkəmlənməsinə sərf edib. Bu gün də akademik Ramiz Mehdiyev Prezident İlham Əliyevin rəhbərliyi ilə gündən-günə inkişaf edən ölkəmizə, dövlətçiliyimizə xidmət göstərməkdədir. O, eyni zamanda, mükəmməl bir akademik düşüncəyə malik olan görkəmli elm xadimidir. Belə bir görkəmli alimə verilən ən böyük dəyərlərdən biri də ona həsr edilmiş biblioqrafiyanın nəşri və elektron məlumat bazasının hazırlanmasıdır. Bu işdə əməyi olan hər kəsə təşəkkür edirəm", - deyə İ.Həbibbəyli söyləyib.

Ramiz Mehdiyevə həsr edilmiş biblioqrafiyanın onun elmi fəaliyyətinə verilmiş ən yüksək dəyər olduğunu deyən Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərov alimin elmi və dövlətçilik fəaliyyətindən danışıb.

Qeyd edilib ki, qlobal miqyasda tanınan Ramiz Mehdiyevin əsərlərinə bu gün dünyanın bir çox ali təhsil ocaqlarında istinad edilir. Bütün bunlar göstərir ki, o, Azərbaycanın görkəmli ictimai-siyasi xadimi olmaqla yanaşı, həm də dünya miqyasında tanınan şəxsiyyətdir. Ulu öndər Heydər Əliyevin idarəçilik məktəbini keçmiş akademik idarəçilik, dövlət quruculuğu, vətəndaş cəmiyyəti və milli ideyanın formalaşması sahəsində unikal əsərlər müəllifi kimi tanınır: "Təqdimatına toplaşdığımız bu biblioqrafiyada alimin əsərləri, yaradıcılığı haqqında məlumat verilir. Onun əsərləri, eyni zamanda, dövlət idarəçiliyi üçün kadrların yetişməsi istiqamətində böyük elmi mənbədir. Ramiz Mehdiyev həm filosof alim, həm də ictimai-siyasi xadim kimi böyük nüfuza malikdir. Onun əsərləri bu gün də, sabah da araşdırmaçılar üçün tədqiqat obyektidir. Milli Kitabxana tərəfindən belə bir layihənin gerçəkləşməsi olduqca təqdirəlayiqdir".

Milli Məclisin deputatları - AMEA-nın Şərqşünaslıq İnstitutunun direktoru, professor Gövhər Baxşəliyeva, Bakı Dövlət Universitetinin kafedra müdiri Bəxtiyar Əliyev və yazıçı-publisist Elmira Axundova, habelə AMEA-nın Fəlsəfə İnstitutunun direktoru, professor İlham Məmmədzadə, Prezident Kitabxanasının direktoru, Əməkdar Mədəniyyət İşçisi Mayıl Əhmədov çıxış edərək akademikin dövlətçilik tariximizdəki xidmətlərindən, elmi fəaliyyətindən söz açıblar. Natiqlər Ramiz Mehdiyev haqqında belə bir biblioqrafiyanın hazırlanması və elektron məlumat bazasının təqdim edilməsini yüksək qiymətləndiriblər. Sonda kitabla bağlı müzakirələrə yekun vuran Kamal Abdulla təhsil müəssisələrində və elm ocaqlarında Ramiz Mehdiyevin yaradıcılığına həsr edilən "dəyirmi masa"ların keçirilməsinin vacibliyini vurğulayıb.

## Akkan Suver: Bakı şəhəri inkişafına görə Qafqazın Parisi adını qazanıb




Türkiyənin Mərmərə Qrupu Strateji və Sosial Araşdırmalar Vəqfinin sədri, professor Akkan Suverin "KobiEfor" elektron qəzetində "Yenidən Azərbaycan Prezidenti seçilən İlham Əliyev ilk səfərini Türkiyəyə etdi" sərlövhəli analitik məqaləsi yayılıb.

Məqalədə dövlətimizin başçısı İlham Əliyevin prezident seçkilərində qazandığı möhtəşəm qələbə, bu siyasi zəfəri gerçəkləşdirən səbəblər, Azərbaycanın keçdiyi sosial-iqtisadi inkişaf yolu və s. barədə türkdilli oxuculara geniş məlumat verilir. Azərbaycanın müstəqil siyasət yürüdən, sülhsevər və çoxistiqamətli inkişaf yolunda olan dövlət olduğu vurğulanır. Bildirilir ki, Bakı şəhəri inkişafına görə Qafqazın Parisi adını qazanıb. Ölkənin bütün bölgələri sürətlə inkişaf edir. Azərbaycanın həyata keçirdiyi beynəlxalq əhəmiyyətli iqtisadi layihələrdən bəhs edən müəllif dövlətimizin başçısının prezidentliyinin yeni dövründə ilk rəsmi səfərini qardaş Türkiyəyə etməsinin artıq bur ənənəyə çevrildiyini vurğulayır.

## Prezident Administrasiyasının ictimai-siyasi məsələlər şöbəsinin fəaliyyəti genişləndirilib



Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamı ilə Prezident Administrasiyasının ictimai-siyasi məsələlər şöbəsinin tərkibində ictimai-siyasi işin təşkili sektoru yaradılıb. AZƏRTAC xəbər verir ki, mərkəzi və yerli icra hakimiyyəti orqanlarında ictimai-siyasi işin təşkili ilə bağlı məsələlərin əlaqələndirilməsi sektorun fəaliyyətinin əsas istiqaməti olacaq. İctimai-siyasi məsələlər şöbəsinin gənclər təşkilatları ilə iş sektorunun müdiri vəzifəsində çalışmış Vüsal Quliyev yeni yaradılmış sektorun rəhbəri təyin edilib.

## Fərhad Abdullayev: "Azərbaycanda hüquqi, demokratik dövlət quruculuğu Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır"



Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin, Azərbaycan Milli Elmlər Akademiyasının Hüquq və İnsan Haqları İnstitutunun və Qara dəniz və Xəzər dənizi Regionu Ölkələri Hüquqşünasları Assosiasiyasının insan hüquq və azadlıqlarının müdafiəsinə dair birgə keçirdiyi konfrans artıq ənənəvi xarakter daşıyır. Hər il ulu öndər Heydər Əliyevin anadan olmasının ildönümü ərəfəsində biz hüquqi konfransı keçiririk. AZƏRTAC xəbər verir ki, bu sözləri jurnalistlərə müsahibəsində Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev deyib. Fərhad Abdullayev qeyd edib ki, konfransda müasir hüququn bütün aktual məsələləri müzakirə olunur. Bu konfransın məhz ulu öndər Heydər Əliyevin anadan olmasının ildönümü ilə bağlı keçirilməsi təsadüfi deyil. Çünki müasir Azərbaycanın hüquq sistemini, demokratik, hüquqi dövlət quruculuğunu ulu öndər Heydər Əliyevin fəaliyyətindən, onun müəyyən etdiyi istiqamətlərdən, ölkəmiz və xalqımız qarşısındakı xidmətlərindən ayrı təsəvvür etmək mümkün deyil. Azərbaycanda hüquqi, demokratik dövlət quruculuğu prosesi ulu öndər Heydər Əliyevin adı ilə sıx bağlıdır. Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycanda insan hüquq və azadlıqlarının yüksək səviyyədə qorunması istiqamətində mühüm işlər görülüb, islahatlar həyata keçirilib. Bu gün bu işlər Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

## Birləşmiş Ərəb Əmirlikləri KİV-ləri Formula 1 Azərbaycan Qran-Prisinin artan populyarlığından yazır



Birləşmiş Ərəb Əmirliklərinin populyar www.dotemirates.com elektron qəzetində dünyanın ən maraqlı idman yarışlarından biri olan Formula 1 Azərbaycan Qran-Prisinin uğurla keçirilməsi haqqında məqalə dərc edilib. AZƏRTAC xəbər verir ki, məqalədə Formula 1 çempionatının dördüncü mərhələsində dörd gün ərzində 94 min nəfər azarkeşin olduğu qeyd edilir.

Bildirilir ki, Azərbaycan paytaxtında üçüncü dəfədir keçirilən bu həftəsonu yürüşdə bilet satışı bu il Bakıda rekord həddə çatıb. Azərbaycan Qran-Prisinə gələnlərin sayı 2017-ci illə müqayisədə 31 faiz artıb. Bu, Bakının küçələrində keçirilən yürüş şousuna artan marağı göstərir. Özü də satılmış biletlərin 77 faizi daxili bazarın payına düşür. Habelə xarici ölkələrdən gələnlərin sayı nəzərəçarpacaq dərəcədə çoxalıb. Bu il Bakıya keçənilkindən 31 faiz çox əcnəbi azarkeş gəlib. Məqalədə xüsusilə vurğulanır ki, F1-in cari mövsümünün ən cəlbedici mərhələlərindən birini dünyanın 78 ölkəsindən gəlmiş qonaqlar izləyiblər. Xəzərin sahilində yerləşən "Baku Crystal Hall"da Formula 1 Azərbaycan Qran-Prisi çərçivəsində dünya ulduzlarının iştirakı ilə konsert olub.

## Baş nazir Novruz Məmmədov ABŞ Konqresinin nümayəndə heyəti ilə görüşüb



Azərbaycan Respublikasının Baş naziri Novruz Məmmədov mayın 3-də ABŞ Konqresinin Nümayəndələr Palatasının ölkəmizdə səfərdə olan nümayəndə heyəti ilə görüşüb. SİA-nın verdiyi məlumata görə, görüşdə ABŞ Konqresinin nümayəndələrini Azərbaycanda salamlamaqdan məmnunluğunu bildirən Baş nazir bu səfərin böyük əhəmiyyət daşıdığını qeyd edib. Novruz Məmmədov səfərin ikitərəfli münasibətlərin inkişafı ilə bağlı məsələlər ətrafında müzakirələr aparmaq üçün yaxşı fürsət olduğunu diqqətə çatdırıb.

Ölkələrimiz arasındakı münasibətlərə toxunan Baş nazir müstəqil Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında çox yaxşı əlaqələrin olduğunu bildirib. Münasibətlərimiz bu gün də uğurla inkişaf etdirilir. Bir sıra həssas sahələrdə isə çox möhkəm və sıx əməkdaşlıq mövcuddur. Baş nazir Novruz Məmmədov qeyd edib ki, Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra Amerika Birləşmiş Ştatları və Avropa İttifaqı ilə əlaqələrin genişləndirilməsinə xüsusi önəm verib. "Bu gün demokratik inkişaf yolu ilə irəliləyən Azərbaycan həmin yola sadiqdir. Həm ABŞ, həm də Avropa İttifaqı ilə əlaqələri uğurla davam etdirir", - deyə Azərbaycanın Baş naziri vurğulayıb.

Hazırda beynəlxalq aləmdə geosiyasi gərginliklərin müşahidə edildiyini bildirən Baş nazir Azərbaycanın yerləşdiyi regionun da geosiyasi baxımdan dünyanın mürəkkəb bölgələrdən biri olduğunu diqqətə çatdırıb.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan Baş nazir Novruz Məmmədov erməni silahlı qüvvələrinin təcavüzü nəticəsində torpaqlarımızın 20 faizinin işğal olunduğunu, 1 milyondan çox insanın qaçqın və məcburi köçkünə çevrildiyini vurğulayıb. Ermənistanın qeyri-konstruktiv mövqeyi səbəbindən münaqişənin hələ də həllini tapmadığını bildirib. Baş nazir deyib ki, 1918-ci ildə müstəqilliyini elan etmiş, Şərqdə ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin bu il 100 illik yubileyi qeyd olunacaq. Dövlətimizin başçısının Sərəncamı ilə 2018-ci il ölkəmizdə "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan olunub və bir sıra mühüm tədbirlər həyata keçirilir. Novruz Məmmədov Azərbaycanda əsası 100 il əvvəl qoyulan hüquqi, demokratik dövlətçilik ənənələrinə ölkəmizin bu gün də sadiq qaldığını ifadə edib.

Azərbaycana səfərdən məmnunluq hissi duyduqlarını bildirən nümayəndə heyətinin rəhbəri Robert Qudlat ölkələrimiz arasındakı münasibətlərin yüksək səviyyədə olduğunu vurğulayıb, bu əməkdaşlığın gələcəkdə də davam etdirilməsinin vacibliyini bildirib. O, Azərbaycan ilə əməkdaşlığın Amerika Birləşmiş Ştatları üçün dəyərli olduğunu diqqətə çatdırıb. Görüşdə Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında iqtisadi-ticari əlaqələrin daha da genişləndirilməsi və qarşılıqlı maraq doğuran digər məsələlərlə bağlı fikir mübadiləsi aparılıb.

## Azərbaycanın Müdafiə Nazirliyi Ermənistan silahlı bölmələrinin Ağdamda mülki şəxsləri atəşə tutmasına münasibət bildirib



Ermənistan silahlı qüvvələrinin bölmələri içərisində Ağdam Mexaniki Suvarma İdarəsinin əməkdaşları olan yük avtomobilini atəşə tutublar. Ağdam Mexaniki Suvarma İdarəsinin əməkdaşları Ağdamın Çəmənli kəndi ərazisində nasaz olan su artezian quyusunu təmir etməyə gedərkən atəşə məruz qalıblar. Bunu Ağdam Rayon Mexaniki Suvarma İdarəsinin əməkdaşlarının cəbhə xəttində yerləşən Çəmənli kəndində ötən gecə Ermənistan silahlı qüvvələrinin bölmələri tərəfindən atəşə məruz qalmaları ilə bağlı AZƏRTAC-ın sorğusuna cavab olaraq Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildiriblər.

Nazirliyin açıqlamasında qeyd olunub ki, 02-AC-416 dövlət nömrə-nişanlı "KamAZ 43114" markalı avtomobil güllələbaran edilib. İdarənin maşında olan 5 əməkdaşı xəsarət almasa da, avtomobil yararsız hala düşüb. Hazırda avtomobil hadisə yerindən çıxarılıb. İdarənin rəisi Hafiz Əzimzadə bildirib ki, ərazidə yüzlərlə artezian quyusu var. Ermənilər kənd sakinləri ilə yanaşı, ərazidə fəaliyyət göstərən işçiləri də atəşə tuturlar. Müdafiə Nazirliyi bildirir ki, bu, Ermənistan tərəfindən mülki əhalinin hüquqlarının kobud şəkildə pozulmasına yönəlmiş məqsədyönlü təxribatdır. Cəbhə xəttində vəziyyət bölmələrimizin tam nəzarəti altındadır.

Ermənistan silahlı qüvvələrinin bölmələri içərisində Ağdam Mexaniki Suvarma İdarəsinin əməkdaşları olan yük avtomobilini atəşə tutublar. Ağdam Mexaniki Suvarma İdarəsinin əməkdaşları Ağdamın Çəmənli kəndi ərazisində nasaz olan su artezian quyusunu təmir etməyə gedərkən atəşə məruz qalıblar.

Bunu Ağdam Rayon Mexaniki Suvarma İdarəsinin əməkdaşlarının cəbhə xəttində yerləşən Çəmənli kəndində ötən gecə Ermənistan silahlı qüvvələrinin bölmələri tərəfindən atəşə məruz qalmaları ilə bağlı AZƏRTAC-ın sorğusuna cavab olaraq Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildiriblər.

Nazirliyin açıqlamasında qeyd olunub ki, 02-AC-416 dövlət nömrə-nişanlı "KamAZ 43114" markalı avtomobil güllələbaran edilib. İdarənin maşında olan 5 əməkdaşı xəsarət almasa da, avtomobil yararsız hala düşüb. Hazırda avtomobil hadisə yerindən çıxarılıb. İdarənin rəisi Hafiz Əzimzadə bildirib ki, ərazidə yüzlərlə artezian quyusu var. Ermənilər kənd sakinləri ilə yanaşı, ərazidə fəaliyyət göstərən işçiləri də atəşə tuturlar. Müdafiə Nazirliyi bildirir ki, bu, Ermənistan tərəfindən mülki əhalinin hüquqlarının kobud şəkildə pozulmasına yönəlmiş məqsədyönlü təxribatdır. Cəbhə xəttində vəziyyət bölmələrimizin tam nəzarəti altındadır.

# Bakıda insan hüquq və azadlıqlarının müdafiəsinə dair elmi-nəzəri konfrans keçirilib

*Konfrans ulu öndər Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr edilib*



***Mayın 3-də Bakıda Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin, Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Hüquq və İnsan Haqları İnstitutunun və Qara dəniz və Xəzər dənizi Regionu Ölkələri Hüquqşünasları Assosiasiyasının birgə təşkilatçılığı ilə "XXI əsrdə insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində müasir nəzəri və praktiki yanaşmalar" mövzusunda elmi-nəzəri konfrans keçirilib. AZƏRTAC xəbər verir ki, konfrans ulu öndər Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr edilib.***

AMEA-nın Hüquq və İnsan Haqları İnstitutunun direktoru, Milli Məclisin deputatı Aytən Mustafayeva tədbiri açaraq bildirib ki, müasir dövrdə insan hüquqları sahəsi yeni problemlərlə qarşılaşıb. İnsan hüquqları yeni çərçivədə qiymətləndirilir. Təhlükəsizlik məsələsi ön plana çıxıb. Terror aktları, kiberterrorçuluq, yeni üsulda aparılan müharibələr yeni təhlükələrdir. Bu gün insanları bu təhlükələrdən qorumaq istiqamətində çətin və mürəkkəb problemlərlə üzləşmişik.

İnstitutun direktoru ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu və bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən siyasətin nəticəsi olaraq Azərbaycanda insanların azad, sərbəst yaşamaq, hüquqlarını təmin etmək imkanlarına malik olmasından danışıb. O, Azərbaycanda insan hüquqlarının müdafiəsi istiqamətində ulu öndər Heydər Əliyev tərəfindən görülən işlərin, qəbul edilən qərarların əhəmiyyətini qeyd edib. Vurğulayıb ki, həyata keçirilən işlər Azərbaycanda bu sahəyə böyük diqqət göstərildiyini təsdiq edir.

Konfransda çıxış edən Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev Azərbaycanda insan hüquqlarının qorunması ilə bağlı mühüm işlərin görüldüyünü qeyd edib. O bildirib ki, 2018-ci il bir sıra əlamətdar hadisələrlə zəngindir. Bu il ulu öndər Heydər Əliyevin anadan olmasının 95 illiyi, Azərbaycan Xalq Cümhuriyyətinin və 1918-ci ildə yaradılmış bir sıra dövlət qurumlarının, o cümlədən Azərbaycan parlamentinin, ədliyyə, prokurorluq orqanlarının, Silahlı Qüvvələrin yaradılmasının 100, Konstitusiya Məhkəməsinin yaradılmasının 20 illik yubileyləri qeyd ediləcək. Prezident İlham Əliyev bu ili ölkəmizdə "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edib. Bu qərar böyük əhəmiyyət kəsb edir.

Fərhad Abdullayev qeyd edib ki, hər il keçirilən və artıq bir növ ənənə halını almış bu elmi-nəzəri konfransın ulu öndər Heydər Əliyevin adı ilə bağlı olması heç də təsadüfi deyil. Ümummilli lider Heydər Əliyev 1993-cü ildə siyasi hakimiyyətə qayıdan zaman Azərbaycanda keçmiş Sovet İttifaqından qalan qanunlar işləyirdi. Ulu Öndər gözəl başa düşürdü ki, Azərbaycanda milli Konstitusiyaya ehtiyac var. Odur ki, 1995-ci ilin may ayında ulu öndər Heydər Əliyevin birbaşa rəhbərliyi ilə Konstitusiya Komissiyası yaradıldı və 1995-ci ilin noyabr ayında insan hüquq və azadlıqlarının geniş təsbit olunduğu Konstitusiyamız qəbul edildi. Daha sonra Hüquq İslahatları Komissiyası yaradıldı və beynəlxalq hüquqi ekspertizadan keçmiş bir sıra mühüm qanunlar və məcəllələr qəbul edildi. O zaman bütün qanunlarımız həm Venesiya Komissiyası tərəfindən, həm də digər beynəlxalq nüfuzlu təşkilatlar tərəfindən öyrənilmiş və onlara rəy verilmişdi.

Konstitusiya Məhkəməsinin sədri əmin olduğunu bildirib ki, bu tədbir həm ulu öndər Heydər Əliyevin irsinin, onun Azərbaycan xalqı və dövləti qarşısındakı tarixi missiyasının, həm də Azərbaycanın hüququ sisteminin öyrənilməsi baxımından çox faydalı olacaq.

Milli Məclisin sədr müavini, insan hüquqları komitəsinin sədri Bahar Muradova müzakirə edilən mövzunun əhəmiyyətini vurğulayıb. O bildirib ki, bu gün dünyadakı gərgin ictimai-siyasi vəziyyət fonunda Azərbaycanda hökm sürən sabitlik bir nümunədir.

Azərbaycan dövləti bugünkü bütün uğurlarını ulu öndər Heydər Əliyevə, onun dövlət quruculuğu, ölkəmizin inkişafı, xalqımızın rifahının yaxşılaşdırılması istiqamətindəki fəaliyyətinə, fədakarlığına və qəhrəmanlığına borcludur. Müasir dövrdə insan hüquq və azadlıqlarının tam təmin edilməsi istiqamətində bütün imkanları yaradan belə bir dövlət dünya ölkələri üçün bir nümunədir. Azərbaycanda insan haqlarının qorunması istiqamətində daim qanunlar qəbul edilir.

Bahar Muradova qeyd edib ki, Ulu Öndərin xidməti təkcə Azərbaycan xalqına və dövlətinə deyil, ümumiyyətlə, bütün insanlığa verdiyi töhfələrlə ölçülür. Bu irs hələ uzun illər öyrəniləcək və insanlıq bu irsdən bəhrələnəcək. Bu gün Azərbaycan xalqı xoşbəxt xalqdır ki, onun ümummilli lider Heydər Əliyevin siyasətini uğurla davam etdirən, Azərbaycanı daha da irəliyə aparan İlham Əliyev kimi Prezidenti var. Ulu Öndərin layiqli varisi Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz gündən-günə inkişaf edir, daha böyük uğurlar qazanır. Dünyadakı mövcud vəziyyətə baxmayaraq, Azərbaycandakı bugünkü sabitlik, malik olduğumuz dəyərlər, bu dəyərlərin birgəyaşayış normalarına çevrilməsi istiqamətindəki nailiyyətlər bir nümunədir.

Sonra Konstitusiya Məhkəməsinin hakimi Rövşən İsmayılov, Bakı Dövlət Universitetinin (BDU) hüquq fakültəsinin dekanı Əmir Əliyev, Hüquq və İnsan Haqları İnstitutunun şöbə müdiri Ayxan Rüstəmzadə, BDU-nun kafedra müdiri Alış Qasımov, universitetin kafedra müdirinin müavini Elşad Nəsirov, Konstitusiya Məhkəməsinin şöbə müdiri Dürdanə Məmmədova və digərləri mövzu ilə bağlı məruzələrlə çıxış ediblər.



# Milli Məclisin komitə iclasında "Dərman vasitələri haqqında" Qanuna təklif olunan dəyişikliklər müzakirə edilib

***Mayın 3-də Milli Məclisin səhiyyə komitəsinin iclası keçirilib. AZƏRTAC xəbər verir ki, komitənin sədri Əhliman Əmiraslanov gündəliyi təqdim edib. Bildirib ki, gündəliyə iki məsələ daxildir.***

İclasda əvvəlcə "Sanitariya-epidemioloji salamatlıq haqqında" Qanunda dəyişikliklər edilməsi barədə qanun layihəsi müzakirə olunub. Əhliman Əmiraslanov qanun layihəsi barədə məlumat verib. Qeyd edilib ki, təklif olunan dəyişikliklər texniki xarakterlidir. "Sanitariya-epidemioloji salamatlıq haqqında" Qanunda edilməsi nəzərdə tutulan dəyişikliklər "Məktəbəqədər təhsil haqqında" Qanuna uyğunlaşdırma məqsədi daşıyır. Dəyişikliyə görə, dövlət orqanları, ictimai birliklər, müəssisələr, təşkilatlar, idarələr və vətəndaşlar təhsil müəssisələrində, digər idarə və müəssisələrdə uşaqların və yeniyetmələrin təhsili və tərbiyəsi, istehsalat təcrübəsi şərtlərini, onların iaşəsi, sanitariya-məişət təminatı, əmək və istirahət şəraiti üzrə sanitariya qanunvericiliyinin tələblərini tənzimləyən sanitariya normalarına və qaydalarına, gigiyena normativlərinə əməl olunmasını təmin etməlidirlər.

Sonra deputatlar "Dərman vasitələri haqqında" Qanuna dəyişikliklər edilməsi barədə qanun layihəsinə baxıblar. Qeyd olunub ki, dəyişikliyə əsasən dərman vasitələrinin istifadəsinə dair təlimatlarda istehsalçı tərəfindən bəyan edilməmiş məlumatlar, habelə dərman vasitəsinin keyfiyyətli, effektiv və təhlükəsiz olmadığına dair əsaslandırılmış faktlar müəyyən edildikdə müvafiq icra hakimiyyəti orqanı bu dərman vasitələrinin dövlət qeydiyyatına alınmasını və bu Qanunun müvafiq maddəsində nəzərdə tutulan hallarda dövlət qeydiyyatına alınmayan dərman vasitələrinin isə ölkədə tətbiqini qadağan etmək hüququna malikdir. Dövlət qeydiyyatı məqsədilə dərman vasitələrinin və həmin dərman vasitəsinin istehsalında istifadə edilən dərman maddəsinin (dərman substansiyasının) nümunələrini ölkə ərazisinə qanunvericiliklə müəyyən edilmiş miqdarda müvafiq icra hakimiyyəti orqanı, istehsal və topdansatış əczaçılıq fəaliyyəti ilə məşğul olan müəssisələr, xarici istehsalçının Azərbaycan Respublikasındakı yerli nümayəndəliyi və ya yerli nümayəndəliyi olmadığı halda xarici istehsalçının müvəkkil etdiyi şəxs idxal edə bilər. Dərman vasitəsinin effektivliyi və təhlükəsizliyi üzərində dövlət nəzarətinin həyata keçirilməsi məqsədilə mülkiyyət və təşkilati hüquqi formasından asılı olmayaraq bütün müalicə-profilaktika müəssisələri, dərman vasitələrinin qeydiyyat vəsiqəsinin sahibi və ya onun müvəkkil etdiyi şəxs dərman vasitələrinin təhlükəsiz şəkildə istifadəsinin təmin edilməsi üçün müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydalara uyğun olaraq farmakonəzarət üzrə işləri həyata keçirir və bu sahə üçün məsul şəxs təyin edir. Bioloji fəallığa malik qida əlavələrinin əmtəə adı və əmtəə nişanı müvafiq icra hakimiyyəti orqanı tərəfindən dövlət qeydiyyatına alınmış dərman vasitəsinin əmtəə adı və əmtəə nişanı ilə eyni ola bilməz. Deputatlar qanun layihələri barədə fikir və təkliflərini səsləndiriblər.0

# Azərbaycanda azad və demokratik mətbuat formalaşıb

*Ümumdünya Mətbuat və Söz Azadlığı Günü demokratik proseslərin inkişaf etdiyi Azərbaycanda da qeyd olunur*

***Hər il olduğu kimi, bu il də dünyada Ümumdünya Mətbuat və Söz Azadlığı Günü təntəli şəkildə qeyd olunur. Dünyanın ayrılmaz hissəsi olan Azərbaycanda bu tarixi günlə bağlı müxtəlif tədbirlər, yığıncaqlar və dəyirmi masalar keçirilir. Ölkəmizdə söz və mətbuat azadlığının təmin olunması istiqamətində ciddi addımlar atılır, bu sahənin inkişafı ilə bağlı bir sıra uğurlu layihələr həyata keçirilir.***



Məlumat üçün qeyd etmək lazımdır ki, 1993-cü il dekabr ayının 20-də BMT Baş Məclisinin qərarı ilə may ayının 3-ü "Beynəlxalq Mətbuat və Söz Azadlığı Günü" elan olunmuşdur. Ümumdünya Mətbuat Azadlığı Günü demokratik proseslərin inkişaf etdiyi, fikir və söz azadlığına önəm verildiyi ölkələrdə, o cümlədən, Azərbaycanda da qeyd olunur. Müasir dövrümüzdə Azərbaycan mətbuatı dünya mətbuatının bir parçası kimi uğurla inkişaf edir. Söz və mətbuat azadlığı cəmiyyətdə demokratiyanın meyarı və ölçüsü rolunu oynayır.

Mətbuatımızın inkişaf tarixindən bəhs edərkən, dövlət müstəqilliyimizin bərpasından sonrakı dövr daha çox xarakterizə edilir. Bu gün müstəqillik yolu ilə inamla irəliləyən və hərtərəfli inkişaf edən Azərbaycan Respublikası regionun siyasi, iqtisadi və humanitar mərkəzi statusunu qazanaraq, beynəlxalq münasibətlər sistemində öz layiqli yerini tutmuşdur. Mövcud inkişaf dinamikası Azərbaycanın milli informasiya resurslarından da yan keçməmiş, onların ümumdünya informasiya şəbəkəsindəki çəkisini artırmış və rəqabət qabiliyyətini yüksəltmişdir. Dünyada informasiya məkanının gündən-günə genişləndiyi, beynəlxalq təbliğat fəaliyyətinin ayrı-ayrı ölkələrin imicinə, daxili həyatına ciddi təsir göstərdiyi müasir dövrdə kütləvi informasiya vasitələrimiz daha peşəkar, obyektiv və prinsipial, yüksək milli şüur və vətənpərvərlik nümayiş etdirir, Azərbaycanın dövlətçilik maraqlarını hər şeydən uca tutur.

## Azərbaycanda söz azadlığının bərqərar olunması Ulu Öndər Heydər Əliyevin adı, siyasi və dövlətçilik fəaliyyəti ilə sıx bağlıdır

Müasir dövrdə mətbuat və söz azadlığı cəmiyyətin və dövlətin demokratik inkişaf göstəricisi kimi qəbul olunur. Kütləvi informasiya vasitələri, qəzetlər, jurnallar, teleradiolar, informasiya agentlikləri və informasiyanın müntəzəm formada yayıldığı digər vasitələr cəmiyyətdə ictimai fikri və sosial fəallığı formalaşdırmaqla yanaşı, həm də onları istiqamətləndirir. Bu mənada, dördüncü hakimiyyət hesab olunan kütləvi informasiya vasitələri dünyada demokratiya və informasiya azadlığının mühüm vasitəsi hesab edilir.

Azərbaycanda söz azadlığının bərqərar olunması və onun əsas daşıyıcısı olan müstəqil mətbuatın yaradılması Ulu Öndər Heydər Əliyevin adı, siyasi və dövlətçilik fəaliyyəti ilə sıx bağlıdır. Azərbaycan müstəqilliyini qazandıqdan sonra yeni demokratik mətbuatımız azadlıq və müstəqillik dəyərlərinin təbliğatçısına çevrildi. 1993-cü ildən başlayaraq, KİV-in inkişafında əldə olunmuş nailiyyətlər Ümummilli Liderin bu sahəyə müstəsna diqqət və qayğısı nəticəsində gerçəkləşdi. Ulu Öndər Heydər Əliyevin milli mətbuata olan münasibəti və qayğısı nəticəsində formalaşma və inkişaf prosesində bir sıra təbii və süni maneələrlə üzləşmiş azad və demokratik mətbuatımız cəmiyyətin operativ və obyektiv informasiyaya tələbatını cavablandırmağa nail oldu. Ulu Öndərin KİV-in maddi-texniki bazasının yeniləşdirilməsi və möhkəmləndirilməsi, sərbəst fəaliyyət üçün əlverişli şərait yaradılması ilə bağlı həyata keçirdiyi ardıcıl və məqsədyönlü tədbirlər milli mətbuatımızın tarixinin mühüm faktlarıdır. "Jurnalistlərin dostu" adını qazanmış Ulu Öndər Heydər Əliyev, ölkəmiz müharibə şəraitində yaşasa da, əvvəlcə hərbi senzuranı, 1998-ci ilin avqustunda isə, bütövlükdə, KİV üzərində dövlət senzurasını ləğv etdi. Dahi Öndər Heydər Əliyevin 1998-ci il 16 avqust tarixli "Azərbaycan Respublikasında söz, düşüncə və informasiya azadlığının təmin edilməsi tədbirləri haqqında" Fərmanı ilə ölkədə kütləvi informasiya vasitələri üzərində senzura ləğv edilib. Bu Fərman kütləvi informasiya vasitələrinin sürətli inkişafına ciddi təkan verdi.

## Azərbaycan mətbuatın inkişafı ilə bağlı bütün beynəlxalq konvensiyalara qoşulub

Respublikamızın ictimai-siyasi, sosial-iqtisadi həyatında demokratik dəyərlərin daha geniş şəkildə bərqərar olması, müstəqil dövlətçiliyin siyasi, iqtisadi və hüquqi dayaqlarının möhkəmlənməsi prosesi sürətləndikcə, Azərbaycan dövləti söz və mətbuat azadlıqlarının qanunvericilik bazasının demokratikləşdirilməsi istiqamətində yeni-yeni addımlar atır. Ulu Öndər Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev söz və mətbuat azadlıqlarının inkişafını respublikanın demokratikləşməsi prosesinin vacib amili kimi dəyərləndirir. Söz və mətbuat azadlığını yüksək qiymətləndirən ölkə Prezidenti çıxışlarının birində belə deyib: "Bütövlükdə, söz və informasiya azadlığı hər bir ölkə üçün, ölkənin inkişafı üçün ən vacib olan məsələlərdən biridir. Söz və informasiya azadlığı, demokratiyanın inkişafı, hüquqi dövlətin qurulması Azərbaycanda çox vacib olan məsələlərdir. Mən hesab edirəm ki, bu sahədə ölkəmiz çox böyük və uğurlu yol keçmişdir".

Ölkəmizdə mətbu nəşrlərin sərbəst fəaliyyətinə, jurnalistlərin öz iradələrini azad şəkildə ifadə etmələrinə bütün imkanların yaradılmasına tam şərait var. 2005-ci il 21 iyul tarixində "Azərbaycan mətbuat işçilərinin təltif edilməsi haqqında", "Azərbaycan mətbuat işçilərinə fəxri adların verilməsi haqqında", habelə, "Kütləvi informasiya vasitələrinə maliyyə yardımı göstərilməsi haqqında" sərəncamların imzalanması jurnalistlərin əməyinə yüksək qiymətin təzahürüdür. Prezident İlham Əliyevin 2008-ci il 31 iyul tarixli "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinə birdəfəlik maliyyə yardımı göstərilməsi haqqında", eləcə də, "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi konsepsiyasının təsdiq edilməsi haqqında" sərəncamları isə, təsdiqləyib ki, ölkəmizdə mətbuata göstərilən dövlət qayğısı davamlı və sistemli səciyyə daşıyır. Dövlət başçısının 2009-cu il 3 aprel tarixli "Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun yaradılması haqqında" Sərəncamı da, məhz konsepsiyada əksini tapmış məsələlərin praktik surətdə gerçəkləşdirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

Jurnalistlərin mənzil probleminin həlli üçün Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan maliyyə vəsatinin ayrılması da mətbuata yüksək diqqət və qayğının bariz təcəssümüdür. Bütün bunlar, həm də təsdiqləyir ki, Azərbaycan hakimiyyəti ölkədə söz və mətbuat azadlığının başlıca təminatçısıdır və bu sahədə həyata keçirilən islahatları demokratikləşmə prosesinin mühüm tərkib hissəsi kimi dəyərləndirir. Təbii ki, respublikamızın tarixi inkişafında əldə olunmuş yüksək səviyyə milli mediamız qarşısında da yeni vəzifələr qoyur. Bu gün belə diqqət və qayğı ilə əhatə olunan Azərbaycan mətbuatı müasir informasiya cəmiyyəti quruculuğunda, sosial ədalət və şəffaflığın təmin edilməsində, milli həmrəyliyin və tolerantlığın möhkəmləndirilməsində, demokratik özünüdərkin, siyasi mədəniyyətin inkişafında, milli-mənəvi və ümumbəşəri dəyərlərin qorunub-saxlanması və təbliğində mühüm rol oynamalıdır. Azərbaycan jurnalistikası obyektivlik, qərəzsizlik və vətənpərvərlik prinsiplərinə əməl etməlidir. Hər bir mətbuat işçisi istənilən vəziyyətdə məsuliyyət hissini unutmamalıdır. Azərbaycan Prezidenti İlham Əliyevin vurğuladığı kimi, bu gün ölkəmizin artan imkanları kütləvi informasiya vasitələrinin, o cümlədən, milli mətbuatımızın inkişafı üçün kompleks tədbirlərin həyata keçirilməsinə şərait yaratmışdır: "Kütləvi informasiya vasitələrinə dövlət dəstəyinin əsas məqsədi müstəqil, peşəkar, rəqabətədavamlı, eyni zamanda, milli şüur və vətənpərvərlik prinsiplərinə dönmədən əməl edən media resurslarının formalaşdırılmasıdır.

**NƏZAKƏT**

## "Söz və mətbuat azadlığı Azərbaycanın ən başlıca prinsiplərindən biridir"



"Bu gün Ümumdünya Mətbuat və Söz Azadlığı günüdür. Sözün həqiqi mənasında bu gün həm tarixinə, həm də yarandığı şəraitə görə əhəmiyyət kəsb edir. 1993-cü ildən etibarən 3 may Ümumdünya Mətbuat və Söz Azadlığı günü kimi qeyd olunur. Azad sözün şərəfinə elan olunmuş bu gün bilirsiniz ki, soyuq müharibənin başa çatması gününə təsadüf edir". Bunu SİA-ya açıqlamasında "İki Sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə deyib.

Baş redaktorun sözlərinə görə, ötən əsrin son onilliyində - 1991-ci ildə bir çox ölkələrin jurnalistləri Parisdə toplanaraq belə bir günün təsis olunmasına təşəbbüs göstəriblər: "1993-cü ildə Namibiyanın paytaxtı Vindhuk şəhərində YUNESKO belə bir qərar qəbul etmişdi ki, 3 may tarixi Ümumdünya Mətbuat və Söz Azadlığı günü kimi qeyd olunsun. Eyni zamanda, 1993-cü ilin 20 dekabr tarixində BMT Baş Assambleyası belə bir qərar qəbul etdi. Təbii ki, Azərbaycan da bu günü çox yüksək səviyyədə qeyd edir. Burada əsas məqsəd insanların söz, fikir azadlığından sərbəst şəkildə yararlanmasıdır. Bununla belə jurnalistikanın cəmiyyət üçün nə qədər önəm kəsb etdiyi ən ümdə məsələ olub. Azərbaycanda bu sahədə kifayət qədər uğur işlər reallaşdırılıb və həyata keçirilib. Xüsusilə qeyd etmək istəyirəm ki, söz, mətbuat azadlığı Azərbaycanın ən başlıca prinsiplərindən biridir ki, demokratik prinsiplərin bərqərar olması, demokratik prinsiplərin inkişaf etməsi üçün Azərbaycanda dövlət səviyyəsində bu sahəyə xüsusi önəm verilib.

Vurğulamaq istəyirəm ki, Ümummilli Lider Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra bu sahəyə xüsusi önəm verildi və diqqət yetirildi. 1998-ci il avqustun 6-da Ümummilli Lider Heydər Əliyevin qərarı ilə senzura ləğv edildi. Müstəqil medianın inkişafı, məhz həmin tarixdən başladı. 1999-cu ildə "Kütləvi informasiya vasitələri haqqında" Azərbaycan Respublikasının yeni Qanunu qəbul edildi. O qanun ki, Avropanın, dünyanın bir çox ölkələri üçün nümunə oldu. Bir sözlə, Azərbaycanda mətbuat üzərindən dövlət nəzarət mexanizmi aradan qaldırıldı və uğurlu inkişafa nail olundu".

## Bəhruz Quliyev: "Azərbaycanda söz və mətbuat azadlığı yetərincə təmin edilib"



"Azərbaycan Konstitusiyasının üçdə iki hissəsi insan haqlarına, fikir plüralizminə, söz və mətbuat azadlığına xidmət edir. Ölkəmizdə cəmiyyətin inkişafını təmin edən kifayət qədər qanunlarımız var. Amma ən başlıcası siyasi iradədir ki, ölkəmizdə bu təmin edilib". SİA-nın xəbərinə görə, bu fikirləri Səs Media Qrupunun rəhbəri Bəhruz Quliyev deyib.

Azərbaycan Prezidenti İlham Əliyevin 2017-ci ildə BMT-də etdiyi çıxışı xatırladan B.Quliyev söyləyib ki, ölkə başçısının qeyd etdiyi kimi ölkəmizdə fundamental azadlıqlar qorunur: "Hər kəsə məlumdur ki, vaxtilə Ulu Öndər Heydər Əliyev senzuranı ləğv edib, mətbuatın üzərindən əlavə dəyər vergisini götürüb, mətbuatın inkişafı ilə bağlı tapşırıq və tövsiyələrini verib. Təbii ki, mətbuatın inkişafının bünövrəsi həmin dövrdən qoyulub. Azərbaycan mətbuatının 143 illik ömrü olsa da, müstəqil mətbuatdan, onun demokratik inkişafından danışdıqda 1993-cü ildən sonrakı zamanı götürürük. Ümumiyyətlə, Ümummilli Liderin mətbuatın inkişafında xüsusi xidmətləri var. Bu gün də biz görülən işlərə fundamental proqram kimi yanaşırıq".

Səs Media Qrupun rəhbəri qeyd edib ki, 2008-ci ildə Azərbaycan Prezidenti İlham Əliyevin mətbuatın inkişafı ilə bağlı imzaladığı konsepsiya isə mətbuatın inkişafının ikinci mərhələsinə keçidi təmin etdi: "Bu konsepsiyaya uyğun olaraq Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu fəaliyyət göstərməkdədir. Bütün bunların hamısı dövlətin demokratik dəyərlərə yanaşmasıdır. Artıq bütün dünya Azərbaycanda gedən tendensiyaları yaxşı mənada təqdir edir. Aprelin 11-də keçirilən seçkilərdə beynəlxalq müşahidəçi kimi Azərbaycana gələn jurnalistlər də etiraf etdilər ki, bu gün Azərbaycan dünyaya yeni model təqdim edir. Dünyanın heç yerində kütləvi şəkildə jurnalistlərə mənzil verilməsi ənənəsi yoxdur. Azərbaycanda jurnalistlərə verilən mənzillər heç bir şərt qoyulmadan, jurnalisin əqidəsinə, tutduğu mövqeyə baxmadan təqdim edilir. Bu cür yanaşma dövlətin həm jurnalist qayğısı, həm jurnalistikaya verilən dəyər, həm də dünyada demokratik dəyərlərə yanaşmanın yeni formasıdır. Bir sözlə, Azərbaycanda söz və mətbuat azadlığı yetərincə təmin edilib".

səs

www.sesqazeti.az

facebook Ses Media Holding

4 may 2018-ci il

## Aydın Hüseynov: "Ermənistanın yeganə xilas yolu işğalçı siyasətdən əl çəkməkdir"



"Ermənistanda meydana çıxan hakimiyyət böhranının və siyasi, iqtisadi tənəzzülün əsasında duran başlıca amil bu ölkə rəhbərliyinin həyata keçirdiyi yarıtmaz və işğalçı siyasətdir". Bu sözləri SİA-ya Milli Məclisin deputatı, YAP Siyasi Şurasının üzvü Aydın Hüseynov deyib.

Onun sözlərinə görə, işğalçı və təcavüzkar siyasət Ermənistanın blokada vəziyyətinə düşməsinə səbəb olub, bu ölkədə sosial-iqtisadi və demoqrafik böhran hökm sürür: "Bu gün Azərbaycanda Ermənistan əhalisinin sayı qədər, yəni 2 milyon iş yeri açılıb. Azərbaycanda əhali hər il 100 min nəfər artırsa, Ermənistanda 100 mindən çox insan ölkəni tərk edir. Ermənistan iqtisadiyyatı tamamilə dağılıb, ölkədə yoxsulluq və səfalət pik həddə çatıb".

"Azərbaycanın həyata keçirdiyi hücum diplomatiyası və uğurlu siyasət nəticəsində Ermənistan dalana dirənib, bütün regional layihələrdən təcrid durumuna düşüb və faktiki olaraq manevr imkanları tükənib. 2016-cı ilin aprel döyüşlərinin nəticəsi isə Ermənistan cəmiyyətində isterikanın yaranmasına səbəb oldu. Ermənistan və onun havadarları anladılar ki, Azərbaycan güclü, qüdrətli dövlətdir və işğal altında olan torpaqlarını azad etməyə qadirdir. Aprel döyüşləri erməni təbliğat maşınının Ermənistan ordusunun gücü haqqında formalaşdırdığı mifi dağıtdı. Erməni mətbuatında mütəmadi olaraq dərc olunan yazılarda bu ölkənin siyasi dairələrinin təşviş içində olduğu, Azərbaycan Ordusunun gücü qarşısında erməni silahlı qüvvələrinin acizliyi diqqətə çatdırıldı. Bütün bu reallıqların fonunda erməni cəmiyyəti anlayır ki, Ermənistanın çıxış yolu işğalçı siyasətdən imtina etməkdir. Bu ölkədə hakimiyyətdə kimin olmasından asılı olmayaraq, Azərbaycan öz torpaqlarını işğaldan azad edəcək",-deyən A.Hüseynov əlavə edib ki, Ermənistanda hökm sürən böhran və tənəzzülün daha da dərinləşəcəyini proqnozlaşdırmaq çətin deyil. Millət vəkili onu da qeyd edib ki, mövcud reallıqlar deməyə əsas verir ki, Ermənistan yeni siyasi kataklizmlərə sürüklənir: "Serj Sarkisyan illərdir ki, rəhbərlik etdiyi klan vasitəsilə Ermənistanın bütün resurslarını istismar edib, sistemli korrupsiya maşını yaradaraq xarici diasporun göndərdiyi ianələri belə mənimsəyib. Bu gün isə ölkədə hakimiyyət böhranı, xaos, anarxiya, böhran və tənəzzül hökm sürür. Bütün bunların əsasında, qeyd etdiyimiz kimi, işğalçı siyasət dayanır. Ermənistanın yeganə xilas yolu işğalçı siyasətdən əl çəkmək və qonşu ölkələrlə münasibətləri bərpa etməkdir".

## "Azəriqaz": Dörd ayda 206 çoxmərtəbəli bina qazlaşdırılıb




Bu ilin yanvar-aprel aylarında 206 çoxmərtəbəli binaya təbii qaz verilib. "Azəriqaz" İstehsalat Birliyindən (İB) AZƏRTAC-a bildirilib ki, birlik çoxmərtəbəli binalara təbii qazın verilməsi istiqamətində fəaliyyətini davam etdirir. Görülmüş işlərin nəticəsidir ki, birlik 2018-ci ilin yanvar-aprel ayları ərzində hüquqi və fiziki şəxslərin müraciətlərini araşdıraraq, müvafiq sənədləri təqdim olunan 206 çoxmərtəbəli binaya təbii qazın verilməsini təmin edib. Həmin binalarda ümumilikdə 10 min 558 ailə yaşayır.

"Azəriqaz" təbii qazın satışı ilə məşğul olan bir qurum kimi zəruri sənədləri təqdim etmiş, bütün normativ-texniki və təhlükəsizlik tələblərinə cavab verən istənilən çoxmərtəbəli binanın ən qısa müddətdə "mavi yanacaq"la təmin olunmasında maraqlıdır.

# Müqəddəs Məryəm Katolik Kilsəsində görüş keçirilib

***Azərbaycan Respublikası Prezidenti Administrasiyasının millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Etibar Nəcəfov mayın 3-də Bakıda yerləşən Müqəddəs Məryəm Katolik Kilsəsini ziyarət edib, kilsə binasındakı rəsm qalereyası, ibadət zalı və inzibati bina ilə tanış olub. Daha sonra Azərbaycan Respublikasında Katolik kilsəsinin Apostol Prefekturasının ordinarisi, yepiskop Vladimir Fekete ilə görüş keçirilib.***

AZƏRTAC xəbər verir ki, görüşdə əməkdaşlıq məsələləri və onun inkişaf perspektivləri ətraflı müzakirələr aparılıb.

Söhbət zamanı, həmçinin yepiskop Vladimir Fekete ölkəmizdə katolikliyin tarixi və fəaliyyəti haqqında geniş məlumat verib, dövlətin icmaya göstərdiyi qayğıdan yüksək məmnunluğunu ifadə edib. Etibar Nəcəfov ümummilli lider Heydər Əliyevin Katolik dini icmasına yüksək diqqət və qayğı ilə yanaşmasından, hazırda bu siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsindən bəhs edib. Şöbə müdiri, həmçinin Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın Katolik icmasına xüsusi diqqət yetirməsindən, Heydər Əliyev Fondunun Roma Katolik Kilsəsi ilə sıx əməkdaşlığından danışıb.

Yepiskop Vladimir Feketeyə "Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev multikulturalizmin Azərbaycan modeli haqqında" kitabı təqdim edilib. Görüşdə millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin böyük məsləhətçisi Ceyhun Məmmədov da iştirak edib.

Qeyd edək ki, Azərbaycanda Katolik icmalarının inkişaf dövrü orta əsrlərə təsadüf edir. Bu dövrdə Bakıda, Şamaxıda, Gəncədə, Təbrizdə, Naxçıvanda və başqa şəhərlərdə Roma-katolik kilsəsinin mənsubları məskunlaşaraq monastır, kilsə və tədris ocaqları yaradıblar. Şimali Azərbaycanın Rusiya imperiyası tərəfindən işğalından sonra bütün Katolik icmalar öz fəaliyyətlərini dayandırsalar da, XIX əsrin ikinci yarısından XX əsrin əvvəllərinə qədər olan dövr icmanın həyatında əhəmiyyətli mərhələ kimi səciyyələnir. Çünki bu dövrdə Azərbaycanda Katolik xristianlığına və digər qərb kilsələrinə mənsub əcnəbilərin artımı baş verib. Bunun səbəbi "neft bumu", Polşa üsyanı iştirakçılarının və Rusiya imperiyasının bütün bölgələrindən olan katoliklərin Qafqaza sürgünü ilə əlaqədardır.

XIX əsrin 80-ci illərində Bakıda katoliklərin sayı min nəfəri ötmüşdü. Bakı prixodu da elə bu dövrdə müstəqilləşib. Sonralar isə Müqəddəs Məryəmin Bakirə Hamiləliyi şərəfinə kilsə (1895-ci ildə) tikilməyə başlayıb və onun fəaliyyəti 1900-cu ildə Çar fərmanı ilə təsdiqlənib. Bundan başqa, Bakı qəbiristanında 1903-cü ildə Müqəddəs Xaç kilsəsi, 1912-ci ildə isə qotik üslublu Müqəddəs Məryəmin Bakirə Hamiləliyi katolik məbədi tikilib.

Sovetlər İttifaqı dağılandan və Azərbaycan Respublikasının dövlət müstəqilliyi yenidən əldə olunduqdan sonra



ölkəmizdə katolisizmin dirçəlməsinə şərait yaranıb. Xüsusən ümummilli lider Heydər Əliyevin yerli Katolik icmanın inkişafında oynadığı mühüm rol danılmazdır. Onun yerli Katolik dindarlarına qayğı göstərməsi respublikamızda Katolik icmanın inkişafına rəvac verib.

Günümüzdə bu siyasət dövlətimizin başçısı İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Azərbaycan Respublikası ilə Vatikan dövləti arasında qurulan yüksək diplomatik əlaqələr fonunda Katolik icmanın hərtərəfli dövlət dəstəyi ilə əhatə olunması bunu deməyə əsas verir.

Qeyd edək ki, ilk dəfə Katolik icması 31 yanvar 2002-ci ildə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsindən dövlət qeydiyyatından keçib. Elə həmin ilin may ayında ölkəmizdəki katoliklərin tarixində ən yaddaqalan hadisə baş verir. Belə ki, ulu öndər Heydər Əliyevin dəvəti ilə Roma Papası II İoann Pavel ölkəmizə rəsmi səfərə gəlir. Pontifikin səfəri Azərbaycandakı katoliklərin taleyində yeni səhifə açır. Hava limanında ümummilli lider Heydər Əliyev tərəfindən qarşılanan Katolik Kilsəsinin başçısı çoxsaylı mərasim və görüşlərdən sonra Əl Oyunları Sarayında messa keçirir.

Roma Papasının səfəri zamanı yerli katoliklər üçün başqa bir mühüm hadisə baş verir. Ümummilli lider Heydər Əliyevin göstərişi ilə Katolik məbədin tikilməsi üçün Xətai rayonu ərazisində torpaq sahəsi ayrılır. Nəticədə 2007-ci ilin fevral ayında Bakının mərkəzində Katolik kilsəsi ucaldılır. 2008-ci il sentyabrın 26-da Heydər Əliyev Fondu ilə ölkəmizdəki Katolik icma arasında əməkdaşlıq Memorandumu imzalanır. Sənədə əsasən, tərəflər müəyyənləşdirilən sahələr üzrə inkişaf, yenidənqurma layihələrinin gerçəkləşdirilməsi, sosial və dini təyinatlı obyektlərə yardımın göstərilməsi, Azərbaycanda məskunlaşan xalqların etnomədəni komponentlərinin inkişafına yönələn tədbirlərin həyata keçirilməsini qarşılarına məqsəd qoyurlar. Bu Memorandum çərçivəsində Heydər Əliyev Fondu tərəfindən Müqəddəs Ruhun həvarilərə nazil olmasını təsvir edən klassik vitraj və Müqəddəs Rozariyanın dualarındakı sirlərdən bəhs edən keramik pano "Müqəddəs Bakirə Məryəmin Məsum Hamiləliyi" kilsəsinə hədiyyə olunub.

Fondla Müqəddəs Taxt-Tac arasında günü-gündən inkişaf edən əlaqələr fonunda mühüm mədəni layihələr həyata keçirilir. 2014-cü ildə iyunun 3-də Fond tərəfindən Vatikan Muzeyində Zevsin heykəlinin bərpasına, o cümlədən "Sistina" zalında yenidənqurma işlərinin aparılmasına dair iki Saziş imzalanır. 2014-cü il iyunun 2-də Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva və Jan Lui Bruqes "2015-2016-cı illərdə yeni əlyazmaların bərpa edilməsi və onların rəqəmsallaşdırılması"na dair yeni müqavilə bağlayırlar. Habelə Vatikan dövləti ilə 2012-ci ildə imzalanan ikitərəfli Sazişə əsasən, Fondun dəstəyi ilə bərpa edilən Müqəddəs Marçellinio və Pietro katakombalarının 2016-cı il fevralın 23-də açılışı olub.

Azərbaycanla Vatikan arasındakı əlaqələrin yüksək olduğunu göstərən nümunələrdən biri də Roma Papası Fransiskin 2016-cı ilin oktyabr ayının 2-də ölkəmizə rəsmi səfər etməsidir. Bu tarixi səfər çərçivəsində Papa Fransisk ilk öncə Bakıdakı Katolik kilsəsində messa ayinini icra edib, Katolik icmasının üzvləri ilə görüşüb.

Daha sonra Papa Fransiskin rəsmi qarşılanma mərasimi olub. Mərasim başa çatdıqdan sonra Prezident İlham Əliyevin və xanımı Mehriban Əliyevanın, eləcə də ailə üzvlərinin Roma Papası Fransisk ilə görüşü keçirilib.

Papa, həmçinin Şəhidlər xiyabanını ziyarət edib, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyub. Daha sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Roma Papası Fransisk Heydər Əliyev Mərkəzində ictimaiyyətin nümayəndələri qarşısında çıxış ediblər. Burada Papa Fransisk Azərbaycanın mədəniyyət, incəsənət, ədəbiyyat və elm xadimləri ilə də görüşüb, Heydər Əliyev Mərkəzinin xatirə kitabına ürək sözlərini yazıb.

Eyni zamanda, səfər çərçivəsində Roma Papası Fransisk Heydər Məscidində olmuş, burada ölkəmizdə fəaliyyət göstərən dini icmaların nümayəndələri ilə görüşüb. Onu Heydər Məscidində Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadə qarşılayıb, Heydər Məscidi barədə Papaya geniş məlumat verib.

Qeyd olunan faktlar belə deməyə əsas verir ki, respublikamızda Katolik icma və onun mərkəzi olan Müqəddəs Taxt-Tacla əlaqələr bəsit dövlət-din münasibətləri formatında qurulmur. Bunu adi hal saymaq olmaz. Düzdü, katoliklərin ölkəmizdəki sayı o qədər də çox deyil. Hətta onlar say etibarilə başqa xristianlardan geri qalırlar. Lakin tarixi faktlar onu göstərir ki, Azərbaycandakı xristian konfessiyaları arasında katolisizm qədimliyinə görə Alban Kilsəsindən sonra gəlir. Sadəcə, tarixin axarı və gedişatı bu ənənənin hər dəfə qopmasına səbəb olub.

Apostol Prefekturası respublikamızda mövcud olan müxtəlif dini qurumlarla, o cümlədən Qafqaz Müsəlmanları İdarəsi, Alban-Udi Xristian dini icması, Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyası ilə əməkdaşlıq etməyə və dostluq münasibətləri saxlamağa çalışır. Dövlət səviyyəli tədbirlərə və təntənəli dini bayram mərasimlərinə prefekturanın rəhbərinin dəvət olunması artıq bir ənənə halını alıb.

# Ümummilli lider Heydər Əliyev hər kəsin qəlbində özünə əbədi abidə ucaldıb



**A** ***MEA Mərkəzi Elmi Kitabxanasının (MEK), YAP Yasamal rayon təşkilatının, "Yeni Azərbaycan" qəzetinin təşkilatçılığı ilə ümummilli lider Heydər Əliyevin 95 illiyinə həsr olunmuş anım tədbiri keçirilib.***

Mərkəzi Elmi Kitabxanadan AZƏRTAC-a bildiriblər ki, kitabxananın direktoru Leyla İmanova ümummilli lider Heydər Əliyevin zəngin həyat yolunun, ictimai-siyasi fəaliyyətinin, dövlət quruculuğu sahəsindəki xidmətlərinin əbədiləşdirilməsi məqsədilə kitabxanada görülmüş işlər barədə məlumat verib. "Heydər Əliyev: elektron baza və sənədlərin reyestri" çərçivəsində Ümummilli Liderlə bağlı yaddaşı əks etdirən və kitabxana fondlarında mühafizə edilən bütün sənədlərin elektron kataloqa salınaraq MEK-in Milli Rəqəmsal Yaddaş bazasına daxil edildiyini söyləyən L.İmanova Ulu Öndərin kitabxana quruculuğu sahəsindəki xidmətlərindən danışıb.

Sonra MEK əməkdaşlarının təqdimatında ümummilli lider Heydər Əliyevə həsr olunan videotəqdimat olub. Yeni Azərbaycan Partiyası Yasamal rayon təşkilatının sədri Tağı Əhmədov müasir-müstəqil Azərbaycanın qurucusu, ulu öndər Heydər Əliyevin tarixi-mizdəki əvəzolunmaz yerindən, dövlət və siyasət adamı kimi dünya səviyyəsində qəbul edilmiş nüfuzunun çoxçalarlı cizgilərindən danışıb. T.Əhmədov Ümummilli Liderin hakimiyyət illərində xalqı və Vətəni naminə atdığı fədakar addımlardan bəhs edib.

"Yeni Azərbaycan" qəzetinin baş redaktoru, Milli Məclisin deputatı Hikmət Babaoğlu ümummilli lider Heydər Əliyevin hər kəsin qəlbində özünə əbədi bir abidə ucaltdığını, dahi şəxsiyyətin zaman və məkan anlayışına sığmayaraq xalqının idealına çevrildiyini söyləyib. Ulu öndər Heydər Əliyevin yalnız dövlət başçısı, siyasi xadim deyil, həm də böyük ideoloq olduğunu vurğulayan H.Babaoğlu cəmiyyət həyatının bütün sahələrində Ümummilli Liderin fikirlərinin, səsləndirdiyi ideyaların həmişə təkanverici qüvvə olduğunu vurğulayıb. Sonda tədbir iştirakçılarına Ümummilli Liderə həsr olunan kitablar hədiyyə edilib.

# "Azərbaycanda gənclərin maarifləndirmə işinin inkişaf perspektivləri"

**D** ***ünən Bakı İslam Universitetinin Tələbə Gənclər Təşkilatı və Dünya Azərbaycanlı Gənclərinin Beynəlxalq Həmrəyliyi İctimai Birliyinin birgə təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş "Azərbaycanda gənclərin maarifləndirmə işinin inkişaf perspektivləri" mövzusunda gənclər üçün tədbir keçirilib. SİA-nın verdiyi məlumata görə, tədbir Azərbaycan Respublikasının Dövlət himninin səsləndirilməsi ilə başlayıb.***

Tədbiri giriş sözü ilə gənc alim, Bakı İslam Universitetinin kafedra müdiri, siyasi elmlər üzrə fəlsəfə doktoru Elvin Talışinski açaraq Azərbaycanda gənclərin maarifləndirmə işinin aparılmasının dövlət siyasətinin mühüm sahələrindən biri olduğunu qeyd edib. O, respublikamızda Ulu Öndər Heydər Əliyevin banisi olduğu gənclər siyasətinin davam etdirilməsi istiqamətində müasir cəmiyyətimizin maarifləndirilmə yolu ilə inkişafına, dövlətçiliyimizə və xalqımıza layiqincə xidmət etməyi qarşısına məqsəd qoymuş Azərbaycan gənclərinin ictimai fəallığının yüksək olduğunu bildirib.

Tədbirdə dövlət və ictimai xadimlər, tələbə gənclər təşkilatlarından bir çox dövlət və özəl ali təhsil müəssisələrinin gənc fəalları və mətbuat nümayəndələri iştirak edirdi. Tədbirin keçirilməsində əsas məqsəd gənclərin təhsil, elm və din sahəsində maarifləndirmə işinin inkişaf perspektivlərinin müəyyən edilməsi, bu sahədə dövlət dəstəyinin təmin edilməsi, Azərbaycan gənclərini birləşdirən gənclər təşkilatlarının rolunun müzakirə edilməsidir.



Tədbirdə, həmçinin gənclər qarşısında YAP Gənclər Birliyi baş ofisinin kordinatoru, siyasi elmlər üzrə fəlsəfə doktoru Şəfəq Əhmədova, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin şöbə müdiri Nahid Məmmədov, İlahiyyatçı alim Şahin Həsənli, "SƏS" Media Qrupun rəhbəri, fəlsəfə üzrə fəlsəfə doktoru Bəhruz Quliyev, Azərbaycan televiziya və radio verilişləri QSC-nin baş prodüseri, respublikanın əməkdar mədəniyyət işçisi Hikmət Yaqubov və Dünya Azərbaycanlı Gənclərinin Beynəlxalq Həmrəyliyi İctimai Birliyinin prezidenti Tofiq Əlizadə çıxış ediblər.

Natiqlər tədbirin çox mühüm bir mövzuya toxunmasından, eyni zamanda Ulu Öndər Heydər Əliyevin də gənclərə xüsusi olaraq önəm verməsindən, daim gənclərə qayğı ilə yanaşmasından bəhs etdilər. Bundan əlavə olaraq natiqlər Azərbaycanda gənclər siyasətinin qarşısında duran əsas məqsədlər kimi gənclərin maarifləndirilməsi, intellektual səviyyəsinin artırılması, gənclərimizin və yeniyetmələrimizin elmə, təhsilə yiyələnmələrinə nail olunması, sosial fəaliyyətlərinin yüksək olması, onların arasında azərbaycançılıq ideologiyasının, milli-mənəvi dəyərlərin mənimsənilməsi, dövlət və hökumət strukturlarında geniş təmsil olunması və s. məsələləri vurğuladılar.

Sonra söz gənclərə verildi. Tədbirdə bir neçə dövlət və ali təhsil müəssisəsindən gənclər çıxış edərək mövzuya öz münasibətlərini bildiriblər. Sonda "Azərbaycanda gənclərin maarifləndirmə işinin inkişaf perspektivləri" adlı gənclər tədbirinin iştirakçılarının xatirə fotoşəkli çəkilib.

# "Yehovanın Xristian Şahidləri" Avropa Assosiasiyasının nümayəndələri Azərbaycan multikulturalizmi barədə məlumatlandırılıb



**M**ayın 3-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədr müavini Səyavuş Heydərov "Yehovanın Xristian Şahidləri" Avropa Assosiasiyasının sədri Toni Breys və qurumun nümayəndəsi Mariyano Makiyas Quzman ilə görüşüb. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə komitə sədrinin müavini qonaqlara ölkəmizdəki nümunəvi tolerant və multikultural mühit barədə məlumat verib.

Səyavuş Heydərov bildirib ki, ölkəmizdəki dinlərarası münasibətlərə xələl gətirəcək formada fəaliyyət göstərməyən bütün dini qurumlara tam şərait yaradılıb, dini konfessiya nümayəndələrinə qarşı dözümlülük və tolerantlıq nümayiş olunur. Qeyd edib ki, Azərbaycanın dövlət siyasətinə çevrilən multikulturalizm anlayışı bütövlükdə dünyada mədəni müxtəlifliyin qorunmasına və bu vasitə ilə ümumbəşəri harmoniya yaradılmasına, xalqların, fərqli din və mədəniyyətlərin qarşılıqlı faydalı əməkdaşlığına yönəlib. Sədr müavini ölkəmizin enerji təhlükəsizliyi ilə yanaşı, beynəlxalq təhlükəsizliyin təmin olunması sahəsində əməli addımlar atdığını xatırladıb. O vurğulayıb ki, son illər Azərbaycanın humanitar, sivilizasiyalararası və dinlərarası dialoq forumlarının, mötəbər idman yarışları və digər qlobal əhəmiyyətli tədbirlərin keçirildiyi əsas mərkəzlərindən birinə çevrilməsi heç də təsadüfi deyil.

Ölkəmizə yenidən səfərindən məmnunluğunu ifadə edən "Yehovanın Xristian Şahidləri" Avropa Assosiasiyasının sədri Toni Breys səmimi görüşə və qonaqpərvərliyə görə minnətdarlığını bildirib. T.Breys son illərdə ölkəmizdə "Yehovanın şahidləri" dini icmasının üzvlərinin normal fəaliyyətinin təmin olunması, xüsusi ayinlərin icrası və dini bayramlarının qeyd olunması üçün yaradılan şəraitə görə razılığını ifadə edib. Söhbət zamanı ABŞ-ın "Beynəlxalq Dini Azadlıq üzrə Komissiyası"nın son günlərdə açıqladığı hesabatına da toxunan qonaq ötən illərə aid bəzi məsələlərin yenidən hesabatda irad kimi qeyd olunmasından təəssüfləndiyini bildirib. Bu cür qeyri-obyektiv məlumatların yayılmasının qarşısının alınması üçün əməkdaşlığın daha da intensivləşdirilməsinin vacibliyini vurğulayıb.

# İqtisadçı: "Dollar avroya nisbətən möhkəmlənməkdədir"



**"S**on günlər ABŞ dolları dünya bazarında aparıcı valyutalara, o cümlədən avroya nisbətən möhkəmlənməkdədir. Bir müddət öncə 1 avro almaq üçün 1.24 ABŞ pulu ödəmək lazım idisə, indi Avropanın vahid valyutasının məzənnəsi 1.20-dən da aşağı düşüb". SİA-nın verdiyi məlumata görə, bu barədə iqtisadçı-ekspert Vüqar Bayramov öz "facebook" səhifəsində paylaşıb. Onun sözlərinə görə, ABŞ-da elan edilən iqtisadi göstəricilər fonunda Federal Ehtiyatlar Sisteminin uçot stavkası ilə bağlı əvvəlki artım qərarları və eləcə də Avropa Mərkəz Bankının uçot stavkasını dəyişməz saxlaması və sentyabradək aylıq 30 milyard avroluq qiymətli kağızlar alması (Quantitative easing-QE) prosesinin davam etməsi də qlobal valyuta bazarına təsirsiz ötüşmür: "Qeyd edək ki, Avropa Mərkəzi Bank pul siyasəti faizini 0%-də, depozit faizini mənfi 0.40%-də, marginal borcverme faizini isə 0.25%-də saxlayıb. Brüsseldən və Vaşinqtondan yeni xüsusi bəyanatlar gəlməyəcəyi halda qlobal bazarda yaxın günlərdə stabilləşmə əldə ediləcəyi gözlənir. Dolların möhkəmlənməsi neftin dünya bazar qiymətinə də təsirsiz ötüşmür. Hələlik neftin qiymətində kəskin azalmalar müşahidə edilməsə də "qara qızılın" mövqeyi müəyyən qədər yumşalıb. Bununla belə, dolların möhkəm kursunu qoruyub saxlayacağı və Yaxın Şərqdə siyasi stabilliyin əldə ediləcəyi halda neftin qiymətlərində azalmaların olacağı gözlənilir. Qlobal bazardakı mövcud tələb və təklif tarazlığı fonunda neftin qiymətinin yenidən azlması ehtimalı yüksəkdir. Neftin qiyməti hələlik daha çox siyasi səbəblər və xüsusən də Suriya və İran ətrafında baş verənlər yüksək saxlayır".

səs

www.sesqazeti.az
facebook Ses Media Holding

4 may 2018-ci il

# Azərbaycan tarixində Ulu Öndər Heydər Əliyev şəxsiyyətinin müstəsna yeri var



Nizami rayon icra hakimiyyətinin və Yeni Azərbaycan Partiyası Nizami rayon təşkilatının birgə təşkilatçılığı ilə Ulu Öndər Heydər Əliyevin anadan olmasının 95-ci ildönümü münasibətilə Heydər Əliyev adına Neft Emalı Zavodunda tədbir keçirilib.

Əvvəlcə iştirakçılar Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət edib, önünə gül dəstələri düzüblər. Azərbaycanın dövlət himni səsləndirildikdən sonra Ümummilli Lider Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.



Tədbirdə Ulu Öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin ölkəmizin neft sənayesinə, xüsusilə də, Neft Emalı Zavoduna diqqət və qayğısından bəhs edən film nümayiş etdirilib. Filmin nümayişindən sonra çıxış edən YAP Nizami rayon təşkilatının sədri, Milli Məclisin deputatı Sədaqət Vəliyeva bildirib ki, Azərbaycan tarixində Ulu Öndər Heydər Əliyev şəxsiyyətinin müstəsna yeri var: "Azərbaycançılıq məfkurəsinin parlaq daşıyıcısı olan Dahi Öndər Heydər Əliyev öz müdrik siyasəti, dönməz əqidəsi və tarixi uzaqgörənliyi sayəsində milli dövlətçilik ideyasının gerçəkləşdirilməsinə, müasir Azərbaycan dövlətinin qurulmasına və xalqımızın müstəqillik arzusuna çatmasına nail olub. Ulu Öndərin 1993-cü ildə siyasi hakimiyyətə gəlməsi ilə ölkədə iqtisadi, siyasi, hüquqi islahatlar aparıldı, demokratiya və vətəndaş cəmiyyəti quruculuğu sahəsində uğurlu addımlar atıldı.

Tədbirdə çıxış ndən Heydər Əliyev adına Neft Emalı Zavodunun direktoru Elman İsmayılov bildirib ki, ömrünü xalqımızın, dövlətimizin inkişafına, tərəqqisinə həsr edən Ulu Öndər ölkəmizə rəhbərlik etdiyi bütün dövrlərdə Azərbaycanın milli maraqlarını daim uca tutub. Tədbirdə digər çıxış edənlər diqqətə çatdırıblar ki, Ümummilli Lider bu gün aparıcı dünya dövlətlərinin hesablaşdığı Azərbaycan Respublikasının hərtərəfli inkişafının əsasını qoyub. Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu siyasət bu gün Onun layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Çıxışlardan sonra partiyaya yeni üzv qəbul edilənlərə vəsiqələr, partiyanın işində xüsusi fəallığı ilə seçilən bir qrup şəxsə, fəxri fərmanlar və diplomlar təqdim edilib.

**NƏZAKƏT**

# Yunus Oğuz: "Bu gün Azərbaycan mediası yüksəliş dövrünü yaşayır"



"Media hər zaman "dördüncü hakimiyyət" olub. Media ictimai yükə malikdir. Çünki, insanlar bütün xəbərləri mediadan alır". Bu fikirləri SİA-ya açıqlamasında "Olaylar" qəzetinin Baş redaktoru Yunus Oğuz deyib. O bildirib ki, bu gün Azərbaycanda yazılan yazılara dərhal reaksiyanın verilməsi onun gücündən xəbər verir: "Yadınızdadırsa, ötən il jurnalistlərə mənzillərin verilməsi mərasimində Prezident İlham Əliyev söylədi ki, "mən mənfi xəbərləri sizdən alıram. Siz çox yazın ki, mən də onlara əsasən lazımi ölçünü götürüm". Ölkə başçısının bu fikirləri medianın gücünün göstəricisidir".

Azərbaycanda müəyyən zaman kəsiyində medianın zəiflədiyini deyən baş redaktor söyləyib ki, bu, reket jurnalistikanın kifayət qədər artması ilə bağlı idi: "O zaman reket jurnalistikası ilə mübarizə metodu olmadığı üçün, insanlar fikirləşirdirlər ki, media yalnız pul qopartmaq üçündür. Amma sonradan buna qarşı aparılan mübarizələr, qəzetlər arasında elənmələrin getməsi nəticəsində media yüksəlməyə doğru getdi. Bu gün də media yüksəliş dövrünü yaşayır".

Y.Oğuz qeyd edib ki, bəziləri düşünür ki, media anarxiya olmalı, qanunlara riayət etməməli, bir növ demokratiyanın əsas meyarı olmalıdır: "Demokratiyanın meyarı qanunlar olmalı, media da bu qanunlar çərçivəsində fəaliyyət göstərməli, ondan kənara çıxmamalıdır. Əgər media qanundan kənar çıxırsa, kimlərəsə hədə-qorxu gəlirsə, bu, artıq media deyil, qanun pozuntusudur. Demokratiyanın meyarı qanunlardır. Bu qanunları da insanlara media başa salır".

# Azərbaycanlı qadın Tatarıstanın mədəniyyət naziri təyin edilib



Rusiya Federasiyasının Tatarıstan Respublikasına yeni mədəniyyət naziri təyin olunub. AZƏRTAC "Tatar-İnform" agentliyinə istinadla xəbər verir ki, həmin vəzifəyə milliyyətcə azərbaycanlı olan İradə Əyyubova təyinat alıb.

Daha əvvəl İradə Əyyubova respublikanın Arxiv İşləri üzrə Dövlət Komitəsinin rəhbəri vəzifəsini icra edib. Qeyd edək ki, İ.Əyyubova 1971-ci ildə Bakı şəhərində anadan olub və Azərbaycan Dövlət Neft Akademiyasını bitirib.



# AMEA Rəyasət Heyətində alüminium sənayesinin inkişafına dair müşavirə keçirilib

Mayın 3-də Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Rəyasət Heyətində ölkəmizdə alüminium sənayesinin inkişaf etdirilməsi, bu sahədə istehsalın artırılması məqsədilə kompleks sənaye emalının təşkili və yeni texnologiyaların tətbiqinə dair müşavirə keçirilib. Tədbiri AMEA ilə "Azərbaycan Sənaye Korporasiyası" ASC (ASK) birgə təşkil edib.

AZƏRTAC xəbər verir ki, müşavirədə AMEA-nın prezidenti, akademik Akif Əlizadə ölkəmizdə alüminium sənayesinin tarixi və hazırkı vəziyyəti barədə məlumat verib. Akademik Strateji Yol Xəritəsinin prioritet istiqamətlərindən olan alunit emalının inkişaf etdirilməsi məqsədilə əlaqədar qurumlarla əməkdaşlığın qurulmasının vacibliyini vurğulayıb, müşavirənin bu baxımdan böyük əhəmiyyət daşıdığını nəzərə çatdırıb. AMEA-nın prezidenti alüminium sənayesinin inkişaf etdirilməsi, istehsalının artırılması və alüminium kompleks sənaye emalının təşkili ilə bağlı bu günədək görülən işləri yüksək dəyərləndirib, gələcəkdə də səmərəli nəticələrin əldə olunacağına əminliyini bildirib.

Tədbirdə çıxış edən "ASK" ASC-nin baş direktoru Kamran Nəbizadə rəhbərlik etdiyi təşkilatın Prezident İlham Əliyevin 2017-ci il 6 noyabr tarixli Fərmanı ilə yaradıldığını xatırladıb. Bildirilib ki, qurumun yaradılmasının məqsədi dövlət əmlakının idarə edilməsinin səmərəliliyini artırmaq, korporativ idarəetmə prinsiplərinə əsaslanan hesabatlılıq və nəzarət sistemini formalaşdırmaq, eləcə də dövlətə məxsus müəssisələr arasında əlverişli kooperasiya əlaqələrinin qurulmasına nail olmaqdır. K.Nəbizadə "ASK" ASC tərəfindən alüminium kompleks sənaye emalının təşkili istiqamətində həyata keçirilən tədbirlərdən söz açıb.

Sonra AMEA "Yüksək Texnologiyalar Parkı"nın direktoru, aqrar elmlər üzrə fəlsəfə doktoru Vüqar Babayev "Azərbaycanda alüminium sənayesinin icmalı" mövzusunda təqdimatla çıxış edib. Bildirilib ki, Azərbaycanda alüminium sənayesinin əsası 1955-ci ildə Sumqayıt alüminium zavodunun qurulması ilə qoyulub. V.Babayev zavodun yerli xammalla təmin edilməsi məqsədilə 1966-cı ildən etibarən Daşkəsən alunitindən istifadə edilməklə Gəncə Gil-Torpaq zavodunda gil-torpağın istehsalına başlanıldığını vurğulayıb. O deyib: "1966-cı ildən 1997-ci ilədək Gəncə Gil-Torpaq zavodunda Daşkəsən Zəylik-Alunit mədəni istismar edilməklə alunitdən gil-torpaq məhsulu istehsal olunub. Göstərilən dövrdə 18,4 milyon ton alunit filizi emal edilib və ondan 2,1 milyon ton gil-torpaq, 0,8 milyon ton gübrə, 4,5 milyon ton sulfat turşusu istehsal olunub".

"Yüksək Texnologiyalar Park"ının direktoru bildirib ki, hazırda bir sıra ölkələrdə, o cümlədən Azərbaycanda ekoloji normalara cavab verən iqtisadi səmərəli üsulun müəyyənləşdirilməsi məqsədilə alunit filizinin müxtəlif üsullarla emalı üzrə tədqiqatlar aparılır. Bu istiqamətdə artıq laborator nəticələrin əldə olunduğunu deyən V.Babayev onların sənaye üsulu ilə yoxlanılması istiqamətində işlər aparıldığını diqqətə çatdırıb.

Müşavirədə AMEA Geologiya və Geofizika İnstitutunun şöbə müdiri, geologiya-mineralogiya elmləri doktoru Çingiz Qaşqay "Alunit filizindən tərkib komponentləri ayıran emal texnologiyası", texnika üzrə fəlsəfə doktorları Telman İsrafilov "Zəydaşı filizinin qatı Na2O qələvisi məhlulu ilə işlənilməsi üsulu" və Eldar Tağıyev "Alunit filizinin potaş-qələvi üsulu ilə emal edilməsi" mövzusunda təqdimatlarla çıxış ediblər. Mövzular ətrafında müzakirələr aparılıb.

# "ASAN xidmət"də "Azərişıq" ASC-nin daha 2 xidməti yaradıldı



"Azərişıq" ASC-nin "ASAN xidmət" və "ASAN kommunal" vasitəsi ilə abonentlərə göstərdiyi xidmətlərin sırasına daha 2 xidmət əlavə olunub. ASC-dən SİA-ya verilən məlumata görə, bu gündən etibarən ölkədəki bütün "ASAN xidmət" və "ASAN kommunal" mərkəzlərində "yük hesabatının hazırlanması" (elektrik enerjisinin gücü və keyfiyyət göstəriciləri barədə sənəd) və "istehlakçının balansında olan elektrik şəbəkələrinə, onların avadanlıqlarına texniki xidmətin göstərilməsi" adlı 2 yeni xidmət fəaliyyətə başlayıb.

Qeyd edək ki, "yük hesabatının hazırlanması" (elektrik enerjisinin gücü və keyfiyyət göstəriciləri barədə sənəd) üçün ərizə-blank və müraciət edən şəxsin şəxsiyyət vəsiqəsi tələb olunur. Bu xidmət sifarişçinin tələbinə uyğun olaraq dərhal və ya 2 gün ərzində həyata keçirilir. "İstehlakçının balansında olan elektrik şəbəkələrinə və avadanlıqlarına texniki xidmətin göstərilməsi" üçün də ərizə-blank və müraciət edən şəxsin şəxsiyyət vəsiqəsi tələb olunur. Xidmətin müddəti isə işin həcmindən asılı olaraq müqavilə əsasında müəyyən edilir. Beləliklə, "Azərişıq" ASC-nin "ASAN xidmət" və "ASAN Kommunal" vasitəsi göstərdiyi xidmətlərin sayı 11-dən 13-ə çatıb.



# Erməni cəmiyyəti başını itirib

## Azərbaycan qorxusu və parlaçanmış kütlə












***Ermənistanın Regional Araşdırmalar Mərkəzinin direktoru Riçard Kirakosyan Nikol Paşinyanın baş nazir seçiləcəyi halda Ermənistanın Dağlıq Qarabağ probleminin həllində tutacağı mövqe ətrafında proqnoz verərkən bildirib ki, mövcud siyasi vəziyyətdə növbəti hakimiyyətin sülh danışıqları prosesində qərar verməsi və kompromislərə getməsi çətin olacaq. Ermənistanın "1in.am" saytına müsahibə verən erməni politoloqa görə, əgər Ermənistandakı siyasi böhran davamlı şəkil alarsa, Azərbaycanın hücum siyasəti daha da arta bilər. "Azərbaycanın hücum təhlükəsi hazırda artır, nəninki azalır"-deyə bildirən Kirakosyan əlavə edib ki, 2016-cı ildə Azərbaycan artıq hərbi uğur əldə edib və belə bir vəziyyətdə növbəti uğur əldə etmək üçün şans yaranıb. "Belə ki, ölkədə (Azərbaycanda-R.N.) böyük gözlənti var"-erməni politoloqu vurğulayıb.***

### Riçard Kirakosyan: "Müxalifətdə hakimiyyətdəki müəyyən sahələrdə çalışa biləcək ixtisaslaşmış insanlar yox səviyyəsindədir"

Jurnalistin hazırkı Ermənistan hakimiyyətinin baş verənlərdən nəticə çıxarmalı və daxili siyasi böhranı zamanında həll etməyə məcbur olması barədə sualına cavab verən Regional Araşdırmalar Mərkəzinin direktoru qeyd edib ki, istər siyasi, istərsə də hərbi nöqteyi-nəzərdən ciddi problemlər yaranıb: "Böhran prosesində Karen Karapetyanı və Respublika Partiyasını hakimiyyətdən uzaqlaşdırmaq asan olsa da, müxalifətdə bu yerləri doldura biləcək insan resursları demək olar ki, yoxdur. Müxalifətdə hakimiyyətdəki müəyyən sahələrdə çalışa biləcək ixtisaslaşmış insanlar yox səviyyəsindədir".

### Erməni diasporunun hadisələr ətrafında fikirləri haçalanıb

Bu arada, Ermənistan diasporu da parçalanma yaşayır və bunu Rusiyanın BBC xidməti öz şərhində qeyd edir. Məlumat verilir ki, erməni diasporunun bir hissəsi Serj Sarkisyan hakimiyyətinin devrilməsinin, digər hissəsi isə əksinin tərəfdarı olduqlarını bu və ya digər şəkildə bildirirlər. Məsələn, Amerikanın populyar olan "System Of A Down rok" qrupunun rəhbəri Serj Tankyan digər erməni müğənnisi - Fransanın tanınmış şansonyesi Şarl Aznavur kimi güc tətbiqinin əleyhinə çıxış etsə də, etirazçılara dəstək verdiyini gizlətməyib. O, ölkədə cərəyan edən hadisələri "əsl demokratiya" adlandırıb və hər kəsi N.Paşinyana səs verməyə çağırıb.

Ermənilərin amerikalı pornoulduzu Kim Kardaşyan isə Serj Sarkisyanın istefasından bir gün sonra öz tvitter səhifəsində yazıb ki, erməni xalqının bir yerdə dəyişikliklərə nail olması onu fərəhləndirir. Lakin Kardaşyan tvitterdəki paylaşımında bir qoca erməni qadınının əlindən tutub və mətbuat yazır ki, pornoulduzun əlindən tutduğu qadın məhz Serj Sarkisyanın tərəfdarıymış...

### Xaricdə yaşayan erməni idmançıları, ümumiyyətlə, proseslərə münasibət bildirmirlər

Maraqlıdır ki, xarici ölkələrdə fəaliyyət göstərən erməni idmançıları, ümumiyyətlə, ölkələrində baş verənlərə münasibət bildirməyiblər. Misal üçün, ana xətti ilə erməni olan fransalı futbolçu Yuri Corkayeff, onun Fransa yığmasında oynayan həmkarı Alen Boqosyan, erməni mənşəli argentinalı tennisçi David Nalbandyan nə Paşinyan, nə də hakim Respublika Partiyasının xeyrinə heç bir münasibət bildirməyiblər. Eləcə də, amerikalı "Arsenal" futbol komandasının erməni hücumçusu Henrix Mxitaryan isə Serj Sarkisyanın istefası günü erməniləri siyasi böhrandan sülh yolu ilə çıxmağa səsləyib.

### Rusiyalı erməni politoloqu: "Erməni olduğuma görə utanıram"

Rusiyada yaşayan erməni politoloqu Andranik Miqranyan isə facebook sosial şəbəkəsində baş verənlərə münasibətini bildirərkən "od püskürüb", deyib ki, həmin hadisələr onu utandırır və o bu qarşıdurmanı rüsvayçılıq hesab edir. "Mən baş verənlərə görə erməni olduğumdan utanıram"-deyə erməni politoloqu yazır.

Erməni nəşriyyatçısı Aram Qabrelyanov isə Nikol Paşinyana qarşı çıxıb və sosial şəbəkə vasitəsi ilə bildirib ki, Rusiyanın müttəfiqi olan Ermənistandakı hadisələrə görə narahat olur. O, Paşinyanı təlxək adlandırıb: "Kloun hələ hakimiyyətə gəlməyib, artıq Amerika QHT-lərinə işləyən erməni KİV-ləri anti-Rusiya kampaniyasına başlayıblar. Bu baxımdan, təlxək Paşinyanın Rusiya ilə dostluq barədə dedikləri, sadəcə, boş hava qovucuqlarıdır".

Rusiyada yaşayan musiqiçi və prodüser Stas Namin (Anastas Mikoyan) "Biznes FM" radiostansiyasına müsahibəsində Serj Sarkisyanın hakimiyyətdən sülh yolu ilə getməsinə sevindiyini deyib. Digər rusiyalı musuqiçi - "Krematoriy" qrupunun lideri Armen Qriqoryan isə adıçəkilən radioya müsahibəsində etirazçılara dəstək verdiyini deyib. "Bu, balaca diktatora qarşı böyük xalq qiyamının nəticəsidir"- deyə erməni musiqiçisi bildirib.

Beləliklə, bu məsələdə görünən əsas amil budur ki, artıq erməni cəmiyyəti istər Ermənistanda, istərsə də ölkələrindən kənarda kəskin parçalanma hissləri yaşayırlar. Daha dəqiq desək, həm Qarabağ probleminin həlli istiqamətində ciddi narahatlıq keçirən, Azərbaycanın hücum taktikasından qorxan ermənilər, eyni zamanda, öz aralarında vahid mövqedən çıxış edə bilmirlər. Bu faktın özü Ermənistanın və erməni cəmiyyətinin nə qədər ağır və çıxılmaz durumda olduqlarının bariz göstəricisidir.

***Rövşən NURƏDDİNOĞLU***

***Ordu quruculuğu prosesi, təbii ki, təkcə maddi-texniki təminatla məhdudlaşmır. Döyüş qabiliyyəti, əsgər-zabit heyətinin mənəvi-psixoloji durumu mühüm yer tutur. Mən tam əminliklə deyə bilərəm ki, bu baxımdan, Azərbaycan Ordusu güclü ordular sırasındadır. Döyüş qabiliyyəti artır, orduda mənəvi-psixoloji vəziyyət çox müsbətdir, vətənpərvərlik ruhu, nizam-intizam yüksək səviyyədədir.***

İlham ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti,
Silahlı Qüvvələrin Ali Baş Komandanı

# Güclü və qüdrətli Ordu yaradılıb



Azərbaycanın güclü iqtisadi inkişafı fonunda gəlirlərin artması həyatımızın bütün sahələrində olduğu kimi hərbi potensialımızın da gücləndirilməsinə xüsusi diqqətin ayrılmasına geniş imkanlar yaradır. Ermənistanın Dağlıq Qarabağı hələ də, işğalda saxladığını nəzərə alan Azərbaycan dövləti tamamilə haqlı olaraq öz ordusunun gücünü, hərbi kadrların peşəkarlıq səviyyəsini durmadan artırır, hərbi qüdrətini yüksəldir. Söz yox ki, Azərbaycanın qüdrətli və nizami orduya malik olması, məhz Ümummilli Lider Heydər Əliyevin gərgin zəhmətinin bəhrəsidir. Fakt budur ki, Azərbaycan yenidən müstəqilliyə qovuşduqdan sonra 1991-ci il sentyabrın 5-də Müdafiə Nazirliyinin yaradılması barədə qərar və həmin il oktyabrın 9-da Azərbaycan Respublikasının Ali Soveti tərəfindən Silahlı Qüvvələrin yaradılması haqqında qanun qəbul edilməsinə baxmayaraq, respublika rəhbərliyi bu qərarların həyata keçirilməsi üçün heç bir səy göstərmirdi. Torpaqların müdafiəsi yalnız pərakəndə fəaliyyət göstərən könüllü dəstələrin ümidinə qalmışdı. Bu zaman şəxsi mənafelərə qulluq edən ayrı-ayrı başıpozuq silahlı dəstələrin mövcudluğu müharibə vəziyyətində olan ölkəmizə ciddi problemlər yaradırdı. Bu cür ağrılı problemlərə yalnız Ümummilli Lider Heydər Əliyev 1993-cü ildə xalqın çağırışı ilə yenidən hakimiyyətə qayıtdıqdan sonra son qoyuldu. Ulu Öndər Heydər Əliyev Silahlı Qüvvələrin Ali Baş Komandanı kimi hərbi sahədə də dirçəlişə nail ola bildi. O, yerli özünümüdafiə və könüllü batalyonlar adı altında fəaliyyət göstərən silahlı birləşmələri ləğv edərək, vahid komandanlıq sistemində təşkil olunan nizami ordu yaratdı. Dahi Öndər tez-tez ön xəttə səfər edərək döyüşçülərimizlə səngərdə görüşməsi və onları döyüşə ruhlandırması öz real bəhrəsini verdi. 1994-cü ilin fevralında Füzuli rayonunun Horadiz qəsəbəsi istiqamətində düşmənə qarşı uğurlu hərbi əməliyyat həyata keçirildi. Nəticədə, Horadiz qəsəbəsi daxil olmaqla 22 kənd düşməndən azad edildi. 1994-cü il mayın 12-də Ermənistan-Azərbaycan hərbi münaqişəsində atəşkəs haqda müqavilə imzalandıqdan sonra Azərbaycanda Milli Ordunun gücləndirilməsi daha da sürətlənmiş, həyata keçirilən siyasət nəticəsində Silahlı Qüvvələrin maddi-texniki təminatının yaxşılaşdırılmasına, şəxsi heyətin mənəvi-psixoloji hazırlığının yüksəldilməsinə, döyüş ruhunun yüksəldilməsinə diqqət artırılmışdır.

## Savadlı hərbi kadrların hazırlanmasına xüsusi önəm verildi

Savadlı hərbi kadrların yetişdirilməsi üçün Ulu Öndərimiz 1997-ci ildə Azərbaycan Ali Hərbi Məktəbi, 1999-cu il yanvarın 20-də isə Hərbi Akademiyanın yaradılması haqqında Fərman imzaladı. Prezidentin 20 avqust 2001-ci il tarixli Fərmanı ilə Silahlı Qüvvələr üçün kadr hazırlığının təkmilləşdirilməsi məqsədilə Müdafiə Nazirliyinin Təlim-Tədris Mərkəzi təşkil edildi. Ulu Öndər Heydər Əliyev 1994-cü ilin əvvəllərində Azərbaycan NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramına, bu əməkdaşlığın davamı olaraq 1996-cı ildə "Planlaşdırma və analiz prosesi" proqramına, 2001-ci ildə isə "Fərdi Tərəfdaşlıq üzrə Əməliyyat Planı"na qoşulmuşdur. 1997-ci ildən Azərbaycanın hərbi təhsil müəssisələri NATO standartlarına keçmiş, Silahlı Qüvvələrimizin tərkibində yaradılan sülhməramlı bölük, daha sonra isə sülhməramlı tabor NATO xəttilə həyata keçirilən hərbi-humanitar aksiyalarda fəal iştirak edir, münaqişə ocaqlarında təhlükəsizliyin, sülhün təminatına əsgəri dəstək verirlər. Varislik prinsipini əsas tutan Ümummilli Lider Heydər Əliyevin 22 may 1998-ci il tarixli Sərəncamı ilə 26 iyun Silahlı Qüvvələr Günü kimi, 16 avqust 2000-ci il tarixli Sərəncamı ilə 18 avqust Sərhəd Qoşunları əməkdaşlarının peşə bayramı kimi qeyd olunur. Bu günlərdə isə, təntənəli şəkildə Ordumuzun yaranmasının 100 illiyini qeyd edirik. Artıq bu barədə, ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyevin müvafiq Sərəncamı da imzalanıb. Bu isə, tariximizə, bu günümüzə və nəhayət, ordumuza göstərilən diqqətin və qayğının nəticəsidir.

Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev Silahlı Qüvvələrin yaradılmasının 90 illik yubileyi münasibətilə Bakıda keçirilən təntənəli hərbi paraddakı nitqində demişdir: "1991-ci ildə Sovet İttifaqının dağılması nəticəsində Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra əlbəttə ki, Milli Ordunun yaranması çox vacib məsələ idi. Əfsuslar olsun ki, müstəqilliyimizin ilk illərində Azərbaycanda nizami ordu yarana bilmədi. Azərbaycanda ordu quruculuğu lazımi səviyyədə aparılmırdı. Yalnız Azərbaycan xalqının tələbi ilə Ümummilli Lider, Ulu Öndər Heydər Əliyev 1993-cü ildə Azərbaycan rəhbərliyinə qayıtdıqdan sonra ölkədə ordu quruculuğu prosesi başlanmışdır. Əslində, Azərbaycanda dövlət quruculuğu prosesi başlanmışdır və müstəqil ölkəmizin qurucusu Heydər Əliyevin səyləri nəticəsində, müstəsna xidmətləri nəticəsində Azərbaycanda ordu quruculuğu prosesi çox sürətlə aparılırdı. Qısa müddət ərzində nizami ordunun yaranması mümkün olmuşdur və bu gün ordunun gücləndirilməsi üçün bütün lazımi tədbirlər görülür, peşəkarlıq artır. Mən çox şadam ki, bu gün Azərbaycan Ordusu ən yüksək standartlara cavab verir".

## Ordu quruculuğunun inkişafında yeni mərhələ

Ümummilli Liderimiz Heydər Əliyevin əsasını qoyduğu siyasəti uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ordunun maddi-texniki bazasının gücləndirilməsi, şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığının yüksəldilməsi istiqamətində mühüm tədbirlər həyata keçirməkdədir. Ordunun gücü, döyüş qabiliyyəti, həm də döyüş texnikalarıyla, silah-sursatla bağlıdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2005-ci il dekabrın 16-da Müdafiə Sənayesi Nazirliyinin yaradılması haqqında imzaladığı Sərəncam ordu quruculuğunun daha dinamik aparılmasını təmin edən Sərancam idi. Qısa müddətdə silah, hərbi sursat istehsalına başlanıldı. Nazirliyin istehsal etdiyi məhsulların 80 faizdən çoxu müdafiə təyinatlıdır. Silahlı Qüvvələrin balansında olan zavodlarda təmir, yenidənqurma işləri aparıldı, bu müəssisələr indi ordumuzun inventarında olan hərbi texnikaların təmirini, ən müasir şəkildə modernləşdirilməsini həyata keçirməkdədir.

Azərbaycan Prezidenti İlham Əliyev öz çıxışlarında dəfələrlə vurğulayıb ki, ordu quruculuğu, müdafiə potensialının möhkəmlənməsi və güclü ordunun yaranması dövlət üçün, hökumət üçün, hər bir vətəndaş üçün bir nömrəli vəzifədir. Biz bu istiqamətdə öz səylərimizi davam etdirəcəyik: "Biz hər an hazır olmalıyıq ki, öz doğma torpaqlarımızı işğalçı qüvvələrdən hərbi yolla azad edək və bu məqsədlə nə lazımdır Azərbaycan dövləti edir".

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev bəyan edib ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində aparılan danışıqlar baş tutmasa, Azərbaycan Ordusu torpaqlarımızı işğaldan azad etməyə qadirdir. Ölkə Prezidentinin bu qətiyyəti ordumuzun şəxsi heyətinin qələbəyə inamını daha da yüksəldib. Aparılan düzgün, məqsədyönlü ordu quruculuğu siyasəti nəticəsində Azərbaycan Ordusu bu gün dünyanın ən peşəkar, NATO standartlarına cavab verən ordusu ilə bir sırada dayanır. Bunu beynəlxalq təşkilatlar da təsdiq edir. Bu günlər ABŞ-ın "U.S. News and World Report" nəşrinin açıqladığı siyahıda Azərbaycan ordusu dünyanın ən güclü orduları sırasında yer alıb. ABŞ, Rusiya və Çin silahlı qüvvələrinin başçılıq etdiyi siyahıda Azərbaycan ordusu 38-ci yerdə qərarlaşıb. Nəşrin açıqladığı siyahıda 60 ölkənin adı var. Nəşrin sorğusuna əsasən, Azərbaycan dünyanın ən yaxşı ölkələri arasında 53-cü yerdə qərarlaşıb. "Global Firepower" təşkilatının 2017-ci il üçün hazırlanan reytinq cədvəlində isə, Azərbaycan ordusu 58-ci yerə layiq görülüb. 50 meyar üzrə aparılan qiymətləndirmədə 133 ölkənin ordusunun göstəriciləri araşdırılıb. Azərbaycan Ordusunun 58-ci pillədə qərarlaşdığı reytinq cədvəlində Ermənistan ordusu 93, Gürcüstan isə 82-ci yeri tutub. Bu reytinq dəyərləndirməsi də Azərbaycan Ordusunun Cənubi Qafqazın ən güclü ordusu olmasını bir daha təsdiq edib.

## Ali Baş Komandanın əmri olsa, Ermənistanın külü göyə sovrulacaq

Ordumuzun gücünü artıran, hərbçilərimizin döyüş əhval-ruhiyyəsini yüksəldən əsas amillərdən biri də ölkə Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin hərbi hissələrə, xüsusən, cəbhə xəttinə ardıcıl səfərlər etməsidir. Ön xətdə xidmət edən əsgər və zabitlərimizlə hər görüşündə onlara sonsuz mübarizə əzmi aşılayan Ali Baş Komandan bununla da, orduya diqqət və qayğısını əyani şəkildə nümayiş etdirir. Əminliklə demək olar ki, Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev Azərbaycan Silahlı Qüvvələrinin müasir hərbi texnika ilə təchiz edilməsinə, möhkəm nizam-intizam, yüksək döyüş ruhu ilə seçilən, düşmənə sarsıdıcı zərbə vurmağa qadir olan bir ordu yaradılmasına nail olmuşdur. Bunun real nəticələrini 2016-cı ilin aprel zəfəri bir daha təsqi etmiş oldu. Azərbaycan Silahlı Qüvvələri 4 günlük döyüşlər zamanı düşmənin uzun illər qurduğu müdafiə-istehkamını, canlı qüvvəsini, hərbi texnikasını sıradan çıxartmaqla bir sıra strateji yüksəklikləri və yaşayış ərazilərini azad etdi. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev aprel zəfəri ilə bağlı demişdir: "Biz yüksəklikləri, təpələri işğalçılardan azad etmişik və böyük qəhrəmanlıq göstərmişik. Aprel döyüşləri hərbi dərsliklərə salınmalıdır. Azərbaycan Ordusu bu döyüşlərdə peşəkarlıq, qəhrəmanlıq, məharət göstərmişdir. Biz şəhidlər verdik, Allah bütün şəhidlərimizə rəhmət eləsin. Yaralı əsgərlərimiz, zabitlərimiz olubdur. Mən Hərbi hospitalda yaralı əsgər və zabitlərimizlə görüş zamanı onlarda ruh yüksəkliyi gördüm. Onların bir arzusu var idi, tezliklə sağalmaq və döyüş bölgələrinə qayıtmaq".

Təbii ki, istənilən zaman Azərbaycan Ordusu ölkəmizin ərazi bütövlüyünü bərpa edə bilər. Yalnız bunun üçün Ali Baş Komandanın əmri lazımdır. Yəqin ki, bu əmr olacaq. O zaman Ermənistanın külü göyə sovrulacaq və torpaq bütünlüyümüz tam təmin olunmaqla, üç rəngli bayrağımız Xankəndində, Şuşada, Laçında, Ağdamda və digər işğal altında olan ərazilərimizdə dalğalanacaq.

***Ceyhun Rasimoğlu***
***Yazı Azərbaycan Silahlı Qüvvələrinin 100-cü ildönümünə həsr olunmuş "Hər birimiz Vətənə xidmət edirik" mövzusundakı yazı müsabiqəsinə təqdim edilir***

# Söyüşdən doğulan dırnaqarası mübarizlər



***Virtual məkanın insanlara geniş imkanlar yaratdığı günün reallığıdır və elmi-texniki tərəqqinin yaratdığı bu imkanlardan istifadə etmək informasiya mübadiləsini asanlaşdırır, internet resurslarından istifadəyə zəmin yaradır. Dünya əhalisinin böyük əksəriyyəti artıq internet şəbəkəsinin istifadəçisidir və cəsarətlə demək olar ki, bu gün internetsiz dünyamızı təsəvvür edə bilmərik. Ələlxüsus, sosial şəbəkələr bu mənada daha böyük maraq dairəsindədir və az qala hər kəs sosial şəbəkə istifadəçisinə çevrilib. Statistik göstəricilərə əsasən, deyə bilərik ki, Azərbaycan əhalisinin də 80 faizdən çoxu, məhz internetdən, virtual məkandan və sosial şəbəkələrdən istifadə edir.***

## Azadlıq adı altında tərbiyəsizlik etmək qanun pozuntusudur və məsuliyyət tədbirləri tələb edir

İnternet resurslarından qəbul olunmuş qaydalar, etik normalar çərçivəsində istifadə etmək təqdirəlayiqdir və faydası təkzib edilə bilməz. Lakin heç də hər zaman bu resurslardan, virtual imkanlardan faydalı şəkildə istifadə olunmur və hətta bu imkanlardan çirkin məqsədlər üçün də istifadə edilir. Hətta qarayaxma kampaniyalarında da bəzi qüvvələr bu imkanlardan istifadə edir və ən acınacaqlısı odur ki, etik normalar belə gözlənilmir, söyüş və təhqir kimi qəbul olunmayan davranışlar sərgilənir. Maraqlıdır, siyasi səhnədə heç zaman olmayan bir neçə nəfər siyasi mübarizə adı altında təhqir üzərində köklənmiş, söyüşlə müşayiət olunan fəaliyyəti özlərinə rəva bilir, hətta bu fəaliyyət tərzini yaymaq niyyətini də gizlətmir. Özləri ilə eyni səviyyədə olanları bu işə cəlb etməyə çalışdıqları da ictimaiyyətin diqqətindən kənar deyil. Görünür, heç bir intellekt, bilik, bacarıq və təcrübə tələb etməyən bu tərbiyəsizlik özləri kimi bir çoxlarının da işinə yarayır. Çünki belələrinin başqa heç bir siyasi mübarizə üsuluna potensialı çatmır və daha dəqiq desək, söyüş və təhqirdən başqa heç nəyə qadir deyillər.

İctimaiyyət son vaxtlar mühacirət həyatı seçmiş bir neçə nəfərin internet şəbəkəsindən, virtual məkandan, sosial şəbəkələrdən istifadə edərək qeyri-etik davranışlar sərgilədiyinin şahididir. Avropa şəhərlərinin künc-bucağında, hətta zibilxanalarında daldalanan, bununla da ağzına gələni danışmağı özünə rəva bilənlər bəlkə də özlərini məsuliyyətdən kənar hiss edirlər. Acınacaqlı hal odur ki, bir çoxları azadlığı məsuliyyətsizliklə qarışdırırlar. Azadlıq adı altında tərbiyəsizlik etmək qanun pozuntusudur. Dərk etmirlər ki, dövlət atributlarını və simvollarını təhqir etmək qanun pozuntusudur və məsuliyyət tədbirləri tələb edir.

## Siyasi mübarizədə olmayanlar qəflətən haradan peyda oldular və fəaliyyətləri nədən doğdu?

Mübarizənin mahiyyətini belə anlamayan, siyasi mübarizədə bircə dəfə də olsun adı çəkilməyən, siyasi səhnədə olmayan bir qrup şəxs söyüş söyməyi fəaliyyət növü kimi qəbul edərək, indi özünü mübariz kimi qələmə verməyə çalışır. Belələrinə həm ölkə hüdudlarından kənarda, həm də daxildə rast gəlmək olar və onların fəaliyyətinin, əslində, mahiyyəti eyni olduğu üçün qruplaşdırmağa belə lüzum qalmır. Dünyada analoqu olmayan bu ünsürləri söyüş qrupu kimi yalnız bir kateqoriyaya aid etmək olar.

İstər xaricdəki orduxanlar, mirzəlilər olsun, istərsə də daxildə onlara züy tutan bir çoxları siyasi mübarizədə, meydanlarda heç zaman yox idilərsə, birdən-birə qəflətən hardan peyda oldular? Tutaq ki, onlara bunu xatırladan olmayıb, bəs özləri düşünmürlərmi ki, bu vaxta qədər harda olublar və indi necə oldu yağışdan sonra çıxan göbələklər kimi ortaya çıxdılar? Sosial sifarişin olmadığı bir şəraitdə, heç bir səbəb tapılmadığı halda, özü də mənasız fəliyyətlə ortaya atılmağın adı nədir? Yaxud onların təşkilatlanmayan, nizamnaməsi olmayan qruplaşmaları hansı tələbat və hansı zərurət səbəbindən ortaya çıxdı? Fəaliyyətləri nədən irəli gəlir, bu söyüş qrupunun yaranması zərurəti hardan, nədəndir?

Bəzən özlərini hardasa şişirtmək, nəyə isə qadir olduqlarına, yaxud az da olsa, mahiyyətlərinin olduğuna kimlərisə inandırmaq üçün guyaonlara qarşı təzyiq edildiyi, hətta sui-qəsdlərin hazırlandığı kimi müxtəlif variantlardan və şayiələrdən istifadə edirlər. Amma bunun heç bir təsiri ola bilməz və heç inandırıcı da deyil. Nə də ictimaiyyət bu tərbiyəsizliyin qarşılığında həmin qruplaşmaya inanası deyil. Əksinə, bu təzahürlər artıq ictimai qınağa səbəb olub və cəmiyyət tərəfindən etirazla qarşılanır. Söyüşdən doğulan bu söyüş qrupunun doğuşu kimi onun analoji sonluğu da artıq yetişib. Şübhəsiz ki, söyüşlə meydana atılan bu ünsürlər cəmiyyət tərəfindən tezliklə söyüşlə də meydandan atılacaq və indi Avropanın zibilliklərini məskən edənlər tezliklə tarixin zibilliyində yer alacaq.

***İnam HACIYEV***

# Müxalifət kölə xislətindən əl çəkmir

*"Beşinci kolon" deyilən ünsürlər özlərinə yeni himayədar axtarışına çıxıblar*



***Hər kəsə bəlli olan fakt ondan ibarətdir ki, Azərbaycan müxalifəti müstəqil fəaliyyət göstərmək gücünə malik deyil. Səbəb də onların ictimaiyyət tərəfindən dəstəyə malik olmamalarıdır. Cəmiyyətin birmənalı mövqeyi ondan ibarətdir ki, dağıdıcı müxalifət milli və dövlətçilik maraqlarına qarşı qərəzli mövqe nümayiş etdirir.***

Bəzən xarici qüvvələrin maddi və mənəvi dəstəyinə arxalanaraq, ölkədəki mövcud ictimai-siyasi sabitliyi pozmağa və qarşıdurmalar yaratmağa cəhd göstərirlər. Təbii ki, bu da ictimai rəydə müxalifətə qarşı narazılıqlar yaradır. Bu səbəbdən insanlar müxalifətin başbilənləri hesab olunan İsa Qəmbərə, Arif Hacılıya, Cəmil Həsənliyə, Əli Kərimliyə və digərlərinə nifrət bəsləyirlər. Bunu müxalifət liderlərinin özləri də dərk edir və başa düşürlər. Ona görə də, çıxış yolunu xarici qüvvələrlə əməkdaşlıq münasibətlərini genişləndirməkdə görürlər. Faktlara istinadən demək olar ki, müxalifətin üzdə olan partiya funksionerləri birbaşa və ya dolayısı ilə xarici fondlara və təşkilatlara bağlı insanlardır. Qarşılıqlı əlaqələr fonunda ortada milli maraqların zərbə altına qoyulmasıdır. Dəfələrlə müxalifətin müəyyən ünsürlərinin "SOROS", "Stevan Çldrın", "Vestern Marşal" təşkilatları ilə əlaqələrinin olması sübuta yetirilib. Misal kimi, müsavatçı Əfqan Muxtarlının, eləcə də, AXCP-nin sədr müavini Gözəl Bayramlının sözügedən təşkilatların ayırdıqları maliyyə vəsaitini Gürcüstandan Azərbaycana qaçaqmalçılıq yolu ilə keçirməyə cəhd edən zaman həbs olunmalarını göstərmək olar. Artıq xaricdə həbs olunaraq Bakıya gətirilən "Quska" ləqəbli Hüseyn Abdullayev də istintaq verdiyi ilkin ifadəsində dağıdıcı xislətli müxalif ünsürlərin xarici maraqlı təşkilatlarla əlaqələrinə dair yeni və diqqətə səbəb olan izahatlar verməkdədir. Onun izahatından məlum olan faktlar arasında Baş nazirin keçmiş müavini Abbas Abbasovun Avropadakı "söyüş qrupu"nu maliyyələşdirənlər və təlimatlandıranlar sırasında olmasıdır.

## Ucuz şou yaradanlar özlərini ifşa etmiş olurlar

Bu məqamda diqqətçəkən məsələlərdən biri də odur ki, əgər əvvəllər AXCP və Müsavat funksionerləri ABŞ, Rusiya və ya Avropanın hansısa maraqlı dairələri ilə işbirliyi qurmağa cəhd edirdilərsə, bu gün artıq estafeti A.Abbasov, Rəhim Qazıyev və Etibar Məmmədov üzərlərinə götürüblər. Düzdür, bu şəxslərin nə açıqlamalarından və hansı mövqe sərgiləmələrindən asılı olmayaraq, Azərbaycan cəmiyyəti öz inkişafını və tutduğu yolu davam etdirəcək. Hansısa qüvvələrin bu yola əngəl yaratmaları qeyri-mümkündür. Bunun real fakt olduğu dəfələrlə sübuta yetirilib. Xatırlatmaq lazımdır ki, 2013-cü il prezident seçkiləri ərəfəsində Rusiyada "Milyarderlər İttifaqı" deyilən qondarma qurum da yaradılmışdı. Məqsəd də ölkədə seçki prosesinə müdaxilə etmək və hansısa məkrli planları həyata keçirmək idi. Hətta "Milyarderlər İttifaqı"nın təmsilçiləri qismində qoca rejissor Rüstəm İbrahimbəyovun sədrliyi ilə Azərbaycan müxalifəti "Milli Şura" deyilən qondarma qurum da yaratdı. Amma nə baş verdi? Qısa müddətdən sonra "Milyarderlər İttifaqı" gərəksiz qurum olaraq, fəaliyyətini dayandırdı. "Milli Şura" isə seçkilərdə 1 faizlik baryeri belə keçə bilmədi. Bu isə, adıçəkilən qüvvələrin Azərbaycan cəmiyyəti tərəfindən qətiyyətlə rədd edildiyini göstərdi. İndi də yuxarıda adları çəkilən şəxslərin fəallaşması heç nəyi dəyişməyəcək. Birincisi, ona görə ki, A.Abbasov, S.Hüseynov, R.Qazıyev və E.Məmmədov keçmişləri qaranlıq olan və bu gün də əlləm-qəlləm işlərlə məşğul olan simasızlardır. İkincisi isə, Rusiya ilə Azərbaycan strateji dostluq-qardaşlıq münasibətlərinə malik dövlətlərdir. Rusiya heç bir halda, hansısa S.Hüseynov, R.Qazıyev kimilərin Azərbaycanda pozucu və məkrli planlarının həyata keçirilməsinə dəstək verməz. Bir sözlə, kimlərinsə sosial şəbəkələrdə ucuz şou qurması heç nəyi dəyişə bilməz. Keçmişin bataqlığına gömülənlərin oradan çıxmaları da mümkün deyil.

***İ.ƏLİYEV***

# Ermənistana gələn turistlər geri qayıdır, yaxud etirazlara qoşulur



Ermənistanda yaranan siyasi böhran səbəbindən respublikanın turizm sahəsini may-iyun aylarında tənəzzül gözləyir. AZƏRTAC Interfax informasiya agentliyinə istinadla xəbər verir ki, bunu Ermənistanın Turizm üzrə Dövlət Komitəsinin sədri Zarmine Zeytunsyan deyib. Onun sözlərinə görə, son günlər turistlərin bir hissəsinin Yerevan aeroportuna enən kimi dərhal geri qayıtması halları müşahidə olunur. "Mayın 2-də yolların bağlı olması ilə əlaqədar 40 turist geri qayıdıb. Ölkəyə səfərlərin ləğv olunduğu və burada olan turistlərin nümayişlərə qoşulduğu barədə məlumatlar var", - deyə Zeytunsyan hökumətin mayın 3-də keçirilən iclasının yekunları ilə bağlı jurnalistlərə bildirib. Xatırladaq ki, Ermənistanda Serj Sarkisyanın Baş nazir seçilməsinə qarşı aprelin 13-dən başlayan etiraz aksiyaları hələ də davam edir. Təzyiqlər səbəbindən Sarkisyan istefaya getmək məcburiyyətində qalıb. Parlament mayın 1-də müxalifət lideri Nikol Paşinyanı baş nazir seçmədikdən sonra o, tərəfdarlarını ümumi tətillərə çağırıb. Mayın 2-də nümayişçilər ölkədəki əsas avtomobil yollarını bağlayıb, Yerevanda və digər iri şəhərlərdə miqyaslı mitinqlər keçirib. Baş nazir postuna yeni seçkilər mayın 8-nə planlaşdırılır.

# Monitorinq insidentsiz başa çatıb



ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, mayın 3-də Tərtər rayonu ərazisində yerləşən Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində monitorinq keçirilib. SİA-nın Müdafiə Nazirliyinin saytına istinadən verdiyi xəbərə görə, monitorinq insidentsiz başa çatıb.

# Müxalifət düşərgəsində “ölüm-qalım” savaşına start veriləcək

## “Ağ Partiya”nın sədri: “Onlar siyasi taftalogiya ilə məşğul olurlar”

***Bütün seçkisonrası proseslərdə olduğu kimi, bu dəfə də dağıdıcı təmayüllü müxalifət siyasi uğursuzluğu ilə barışmalı olub. Daha dəqiq desək, sözügedən düşərgənin süstlüyü artıq göz önündədir. Oradakı partiyalar, necə deyərlər, öz qınlarına çəkilib növbəti siyasi-ictimai proseslərə qədər ayaqda qalmağa cəhd göstərirlər. Bu kimi “yaşam” tərzində isə “liderlər”in dadlarına çatan sosial şəbəkələrdir ki, məhz feysbuk, tvitter kimi şəbəkələrdə “var” olduqlarını göstərməyə çalışırlar.***

İctimai rəy onsuz da bu cür zəif, lüzumsuz və qeyri-səmərəli müxalifəti qəbul etmir, ancaq “Milli Şura”, AXCP, Müsavat və s. partiyaların rəhbərliyi hələ də özlərini aldadaraq, guya ölkənin ictimai-siyasi həyatında “mühüm fərd” olduqlarını sanırlar. Halbuki təkcə “Milli Şura”nı götürsək, bu qurumun, hətta ona üzv olmayan digər siyasi qurumların iştirakı ilə birgə normal aksiya və mitinq keçirə bilməməsi qeyd olunan reallığı kifayət qədər isbatlamış olur.

Eləcə də, seçkilərdə “boykot”çuluq taktikasının onların istədikləri nəticəni verməməsi partiyalar daxilində ciddi etirazlara səbəb olmaqdadır. Belə ki, AXCP, Müsavat və s. partiyaların daxilində olan tərəfdarları seçkilərə qatılaraq uduzmağın daha normal məğlubiyyət olduğunu deyir, partiya rəhbərliyini özlərini xalqdan təcrid etməkdə ittiham edirlər.

### “Artıq əvvəlki formatlarına qayıdıblar”

Bu arada, “Ağ Partiya”nın sədri, Müsavat partiyası gənclər təşkilatının keçmiş sədri Tural Abbaslı baş verənlərə münasibətini açıqlayarkən deyib ki, müasir siyasətdə boykot heç bir halda mübarizə yolu olaraq qiymətləndirilə bilməz. Yəni boykot, bilavasitə zəifliyin aşkar əlamətidir.



“Bu, nə hüquqi, nə də siyasi baxımdan doğrudur. Bunun nə cəmiyyətə, nə də müxalifətə faydası var” - deyən müxalifətçi partiya sədrinə görə, adamlar, yəni Əli Kərimli, İsa Qəmbər, Arif Hacılı, Cəmil Həsənli və başqaları uzun illərdir siyasətlə məşğuldurlar, amma mübarizə aparmaq əvəzinə, boykot yolunu seçirlər: “Sadəcə olaraq, boykot onların öz bacarıqsızlıqlarını və fəaliyyətsizliklərini ört-basdır etmək üçün bəhanə oldu. Uzun illərdir hər biri siyasi partiyalara rəhbərlik edirlər, amma heç vaxt da bu təşkilatlar seçkilərə hazır olmur. Bunu ört-basdır etmək üçün də boykot edirlər, siyasi taftalogiya ilə məşğul olurlar. Hətta aktiv siyasi mübarizə aparanları da ittiham edirlər. Özləri isə candərdi aksiyalar keçirdilər. Bu aksiyalar çox az insanı əhatə etdi. Buna görə də mitinqləri dayandırdılar. Artıq əvvəlki formatlarına qayıdıblar”.

### “50-60 yaşdan yuxarı insanlardır, yəni onlar həm fiziki, həm də psixoloji baxımdan mübarizə əzmində deyillər”

T.Abbaslı da hesab edir ki, məhz bu cür üsullarla müxalifətdə qalmaq, hətta düşərgədə monopoliya yaratmaq istəyənlər bu maraqlarının arxasında digər məqamları güdürlər - düşərgədə təmsil olunmaqla siyasi biznes qurmaq və müəyyən xarici təşkilatların verdikləri sifarişləri yerinə yetirib pul-para qazanmaq. Eləcə də, müxalifət düşərgəsinə qatılmaq istəyində olan yeni qüvvələrin qarşısını hansı vəchlə olsun almaq “liderlərin” başlıca məqsədlərindən biridir. Bununla bağlı “Ağ Partiya” sədri də bildirir ki, belələrinin planları da müxalifət adına ortaya çıxmaq istəyən siyasi qüvvələrə və şəxslərə imkan verməməkdir: “Bu yolla da öz “bazarlarına” sahib olmaq istəyirlər. Bu insanların özləri öz potensiallarına, qələbə qazanacaqlarına inanmırlar, xalqın onlara etimad edəcəklərinə də inamları yoxdur. Həmin insanlar üçün “müxalifətçilik” biznesdir, yaşam mənbəyidir”.

Beləliklə, T.Abbaslı hesab edir ki, dağıdıcı müxalifət daxilindəki süstlük təsadüfi deyil və bu, dağıdıcı müxalifət “liderləri”nin fəaliyyətsizliyi ilə əlaqələndirilə bilər: “Uzun illər bu adamların arasında olmuşam. Onların əksəriyyəti 50-60 yaşdan yuxarı insanlardır. Yəni onlar həm fiziki, həm də psixoloji baxımdan mübarizə əzmində deyillər. Onları mübarizə yox, yaxşı yaşamaq, komfortlu həyat maraqlandırır. Bilirlər ki, mübarizə zəhmət və əziyyət tələb edir. Bu yükün altına girmədikləri üçün də müxalifət daxilindəki prosesləri maksimum ölü nöqtədə saxlamaq istəyirlər. Buna görə də boykot yolunu seçirlər. Özlərini əziyyətə salmaq istəmirlər, bugünkü vəziyyətlə barışıblar və öz məişət məsələlərini həll etməklə məşğuldurlar”.

Görünən isə budur ki, əslində, düşərgədəki köhnə və nimdaş müxalifət partiyalarının “liderlərini” haqlı olaraq ittiham edən T.Abbaslı belə siyasi qurumların tarixin arxivinə atılmasının vacibliyinə eyham vurur. Hətta qənaətə gəlmək olar ki, yaxın zamanlarda istər “Ağ Partiya”, istərsə də bu kimi digər yeni yaradılmış müxalifət partiyaları köhnələri siyasi arenadan çıxdaş edəcəklər. Daha dəqiqi, çox yaxın vaxtlarda, bütövlükdə müxalifət düşərgəsində “ölüm-qalım” savaşına start veriləcək. Bu savaşdan hansılarının sağ-salamat çıxacaqlarını isə zaman göstərəcək...

***Rövşən RƏSULOV***



**Təhmasib Novruzov**

## Deməsi məndən, adını qoyması sizdən

***Son vaxtlar bir-birinə bənzər çoxsaylı telefon zənglərinə cavab verməli olmuşam. Ədalət naminə deyim ki, zəng edənlərin heç biri etik normalar çərçivəsindən çıxmır, sadəcə, məni qınaq obyektinə çevirərək bəzi-bəzi cəbhəçilə bağlı verdiyim açıqlamalardan narahat olduqlarını bildirir və məni belə yazılara son qoymağa dəvət edirlər. Həm də məni inandırmağa çalışırlar ki, onlar (yəni cəbhəçilər) daha demokratik və daha ədalətli dövlət idarəçiliyi nümayiş etdirirmişlər.***

Mən də bu adlarını bildirməyən “köhnə cəbhəçi dostlarım”ın dediklərinə toplum bir cavab verməyi daha münasib saydım. Əminəm ki, onlar kimi düşünən adamlar, nə yazıqlar ki, cəmiyyətimizdə hələ də var. Bəzən dövlət və dövlətçilik anlayışının əsl mahiyyətini anlamağa belə çətinlik çəkənlər adama dövlətçilik dərsi vermək istəyirlər. Sən demə, əsl demokratik dövlət o imiş ki, heç kəs məsuliyyətinin fərqinə varmasın, tutduğu vəzifədən asılı olmayaraq, hamı ilə sadə və çayxana dostları kimi rəftar eləsin, belədə dövlət özü idarə olunacaqmış! Yox, atam, sizlərin dediyi dövlətçilik təfəkkürü nağıllarda deyilənlərdir. Cəmiyyət isə nağıllarla idarə olunmur, cəmiyyətin və dövlətin idarə olunması real həyata, təkcə ölkə daxilində deyil, dünyada gedən labirintləşdirilmiş situasiyalara adekvat idarəçiliyə əsaslanır. Belə olmasa, ölkə elə dərin quyuya salınar ki (1992-1993-də olduğu kimi), ordan çıxmağa əsrlərlə zaman lazım olar. Mən 1988-ci ildə Qarabağda erməni məkrinə qarşı təşkilatlanmaq ideyasının təşəbbüskarı olmuşam. Yeni zəng vuranların dediyi kimi, AXC hakimiyyəti süquta uğrayandan (Oxu: hakimiyyəti qoyub qaçandan) sonra deyil, hakimiyyətə gəlməzdən əvvəl dəfələrlə bu qurumu yanlış istiqamətə yönəldənlərlə savaşmışam. Bunu təsdiq edən kifayət qədər video-lentlər, mətbu yazılar bu gün də arxivimdədir. Bir sözlə, mən “köhnə dostlar”ımı iflasa uğrayandan sonra yox, hakimiyyətə gəlməzdən əvvəl də, hakimiyyətdə olduqları zaman da dəfələrlə yanlış fəaliyyətlərinə görə tənqid etmişəm. Təəssüflər olsun ki, saqqalım olmadığından, sözüm ötmədi. Ya da onları idarə edən gözəgörünməz qüvvələr mənim saqqalımı görmələrinə icazə vermədilər. Nəticə də göz qabağında oldu. İndi mən bu məxluqların dövlət idarəçiliyindəki yanlışlıqlarından bir nümunə gətirəcəm. Belə nümunələrdən minlərlə sadalamaq olar. Amma düşünürəm ki, elə gətirəcəyim bir nümunə o insanların ölkəni hansı səviyyədə idarə etdikləri barədə gərəkli təsəvvür yaradacaq. 1992-ci ilin noyabr ayında o zamankı Respublika Sarayında AXC-nin 3-cü qurultayı keçirilirdi. Cəbhədə gərgin döyüşlər getdiyi bir zamanda, qurultaya üç həmsədr seçildi: Ölkənin prezidenti, o zamankı ali baş komandan Əbülfəz Elçibəy, Ali Sovetin sədri İsa Qəmbər və Müdafiə Naziri Rəhim Qazıyev. Qurultaya mən də qonaq kimi dəvət olunmuşdum. Fasilədə ölkənin müdafiə naziri Rəhim Qazıyev foyedə məni görüb, əsəbi tərzdə dedi: - Burda nə gəzirsən, ermənilər Mərziliyə hücum ediblər?!. Məncə, bu faktın izaha ehtiyacı yoxdu. Ermənihücum edib, müdafiə naziri sıravi vətəndaşı qınayır ki, niyə burdasan! Özü isə ali baş komandan və ölkənin ikinci şəxsi ilə birgə səhnəyə qayıdıb, qurultaya sədrlik edir... Bilmirəm, bunu səriştəsizlik adlandıraq, bacarıqsızlıq, yoxsa xəyanət?!. Mən dedim, adını siz qoyun.

# “Nar”-dan 40 qəpiyə bütün istiqamətlərə günlük 20 dəqiqə

***“Nar” yeni “Əlavə dəqiqələr” paketini təqdim etdi. Təklif sayəsində artıq cəmi 40 qəpiyə günlük 20 şəbəkəxarici dəqiqə əldə etmək mümkündür. Bu paketlə 1 dəqiqəsi 2 qəpik olmaqla şəbəkəxarici zəng etmək olar. Paket gün ərzində istənilən sayda sifariş edilə bilər. “Əlavə dəqiqələr” paketinə qoşulmaq üçün 40 yazıb 777 nömrəsinə SMS göndərmək və ya *777#40#YES şifrəsini yığmaq lazımdır.***




“Əlavə dəqiqələr” haqqında məlumat əldə etmək üçün *777#20#YES şifrəsini yığmaq və ya “I” yazıb 777-yə göndərmək, avtomatik aktivləşməni dayandırmaq üçün isə *777#740#YES yığmaq və ya “STOP40” yazıb 777 nömrəsinə göndərmək lazımdır.

“Nar” sərfəli qiymətə yüksək keyfiyyət prinsipinə sadiq qalaraq, bir-birindən fərqli təkliflərlə abunəçilərinin mobil rabitə tələblərini qarşılamağa davam edir. Gücləndirilmiş “Nar” şəbəkəsi sayəsində mümkün olan bu təkliflər müxtəlif kateqoriyalardan olan “Nar” abunəçilərinin istəkləri nəzərə alınaraq irəli sürülür. Hazırda mobil operatorun şəbəkəsi ölkə ərazisinin 93%-ni əhatə edir və 6500-dən artıq baza stansiyası ilə 2 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir. “Nar” tarif və kampaniyaları haqqında ətraflı məlumatı isə nar.az internet səhifəsindən öyrənmək olar.

“Azerfon” şirkəti (“Nar” ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. “Nar” ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. “Nar” ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. Mobil operator şəbəkə keyfiyyətinin davamlı təkmilləşdirilməsi strategiyası çərçivəsində səs keyfiyyətinin nəzərəçarpacaq dərəcədə artımını və səsin təmiz ötürülməsini təmin edən “HD-Voice” (High Definition Voice) xidmətini təqdim edib.

# Azərbaycan Xalq Cümhuriyyəti, insan hüquqları və hüquqi dövlət quruculuğu

***Özünü AXC-nin varisi elan edən Azərbaycan Respublikası 1991-ci ildə yenidən dövlət müstəqilliyinə qovuşdu.***

Azərbaycan Respublikasının Konstitusiyasında Azərbaycan dövlətinin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumaq; Konstitusiya çərçivəsində demokratik quruluşa təminat vermək; vətəndaş cəmiyyətinin bərqərar edilməsinə nail olmaq; xalqın iradəsinin ifadəsi kimi qanunların aliliyini təmin edən hüquqi, dünyəvi dövlət qurmaq; ədalətli iqtisadi və sosial qaydalara uyğun olaraq, hamının faydalı həyat səviyyəsini təmin etmək; ümumbəşəri dəyərlərə sadiq olaraq, bütün dünya xalqları ilə dostluq, sülh və əmin-amanlıq şəraitində yaşamaq və bu məqsədlə qarşılıqlı fəaliyyət göstərmək" kimi ifadə olunmuş vəzifələrin həll edilməsini həm vacib zərurətə çevirmiş, həm də özünün mövcudluğu ilə bunun üçün ilkin - müqəddəm hüquqi əsaslar vermiş və zəruri şərait yaratmışdır. Azərbaycan tarixinin təkcə sovet (1920-1991-ci illər) dövrünün deyil, əvvəlki daha və uzaq və qədim dövrlərinin də kommunist təbliğinin prinsipləri, qondarma marksist-leninçi metodologiya əsasında tədqiq olunduğunu, əslində isə, təhrif olunduğunu sübuta yetirmək indi bir o qədər də çətin deyildir. Tarixi həqiqətlərin qəsdən təhrif edilməsinin bariz nümunəsi 1918-1920-ci illərdə mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyətinin tarixidir. Tarix elmləri doktoru, professor A.İsgəndərov yazır ki, bu torpağın üstündə addımlayaraq, bu xalqın çörəyini yeyərək, onun maddi-mənəvi dəstəyi ilə ərsəyə yetib elmi mənsəb, şan-şöhrət sahibi olaraq, böyük pafosla özünü tarixçi-alim adlandıran kommunist məddahları adidən də adi həqiqətə-"Gülüstan" və "Türkmənçay" sülh müqavilələrindən sonra soyqırımının Azərbaycan torpaqlarının işğalının ayrılmaz bir hissəsinə çevrildiyinə uzun illər boyu göz yummuş, yaxud xalqımıza qarşı ermənilərin soyqırımı siyasətinin ayrı-ayrı təzahür hallarının mahiyyətcə təhrif olunmuş şəkildə, məsələn, 1918-ci ilin mart ayından etibarən əksinqilabçı ünsürlərlə mübarizə şüarı altında Bakı Kommunası tərəfindən ümumən Bakı quberniyasını azərbaycanlılardan təmizləmək məqsədi güdən mənfur planın həyata keçirilməsini, ən yaxşı halda, "vətəndaş müharibəsi" kimi təqdim etməkdən zərrəcə olsa da, vicdan əzabı çəkməmişlər. Halbuki 1918-ci ilin mart qırğını Azərbaycanın XIX-XX əsrlərdə baş verən və hər dəfə də torpaqlarımızın müəyyən hissəsinin zəbt edilməsi ilə müşayiət olunan bütün faciələri cərgəsində ermənilərin azərbaycanlılara qarşı düşünülmüş, planlı surətdə həyata keçirdiyi soyqırımı siyasətində miqyasına və amansızlıq dərəcəsinə görə ayrıca bir mərhələ, müstəsna vandalizm hadisəsidir, deməli, bütün incə məqamlarına qədər tədqiq olunmalı, öyrənilməli, ən başlıcası isə, dərs alınmalı tarixi fakt və tarixi həqiqətdir. 1997-ci ilin mayında Azərbaycan Xalq Cümhuriyyətinin elan olunmasının 79-cu ildönümünə həsr olunmuş təntənəli yığıncaqda Ümummilli Lider Heydər Əliyev 1918-ci ilin mayına qədər Cənubi Qafqazda, o cümlədən, Azərbaycanda baş verən siyasi hadisələrə qiymət verərək qeyd edir: "Azərbaycan Xalq Cümhuriyyəti elan olunana qədər bu bölgədə mövcud vəziyyət son dərəcə mürəkkəb olmuşdur. Birinci Dünya müharibəsi və onun nəticələri bu bölgəyə ağır təsir göstərmişdir. Xüsusilə, erməni daşnak qüvvələrinin müsəlman əhalisinə qarşı törətdikləri qırğınlar böyük faciələr kimi yadda qalmışdır". Ulu Öndər Heydər Əliyev Cənubi Qafqazda müstəqillik ideyasından əvvəlki Azərbaycan, erməni və gürcülərin Zaqafqaziya Komissarlığı və Zaqafqaziya Seymində göstərmiş olduqları fəaliyyətə də münasibət bildirmişdir: "O zaman, hətta Zaqafqaziya ölkələrinin birlikdə dövlət müstəqilliyini elan etmək təklifləri də olmuşdur. Lakin Cənubi Qafqazdakı siyasi vəziyyət və aralarındakı ərazi mübahisələri Zaqafqaziya dövlətinin bir aydan artıq yaşamasına imkan verməmişdir". Dövrün siyasi hadisələrinin təhlilini verən Ulu Öndər Heydər Əliyev məruzəsində qeyd edir: "1918-ci il mayın 28-də xalqımızın qabaqcıl ziyalıları, Azərbaycanın gələcəyi haqqında düşünənlər Azərbaycan Xalq Cümhuriyyətinin yaranması haqqında Tiflisdə qərar qəbul etmiş və bu qərarı "İstiqlal Bəyannaməsi" adı altında elan etmişlər. Sonra yəni iyunun ortalarından Azərbaycan Xalq Cümhuriyyətinin Gəncə dövrü başlanmışdır". Məlumdur ki, Bakıda Stepan Şaumyan başda olmaqla yaradılmış bolşevik-daşnak güruhu Azərbaycan Xalq Cümhuriyyətinin Bakıya köçməsinə imkan vermirdi. 1918-ci ilin sentyabrında Qafqaz İslam Ordusunun köməyi ilə Bakı şəhəri azad olunandan sonra Xalq Cümhuriyyəti hökuməti Bakıya köçmüş və fəaliyyətini burada davam etdirmişdir. Heydər Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin qısa müddət ərzində fəaliyyətini də yüksək qiymətləndirir: "Bu respublikanın yaranması və az müddətdə də olsa yaşaması Azərbaycan xalqının dövlətçiliyinin bərpasında, Azərbaycanın dövlət müstəqilliyini əldə etmək yolunda demokratik quruluş yaratmaq istiqamətində tarixi rol oynamışdır. Azərbaycan Xalq Cümhuriyyəti bir çox dəyərli işlər görmüş və Azərbaycanı bir müstəqil demokratik respublika kimi yaşatmağa çalışmışdır". Azərbaycan Xalq Cümhuriyyəti mövcud olan dövrdə beynəlxalq aləmdə baş verən bir sıra siyasi hadisələr Azərbaycana öz təsirini göstərmiş oldu. Belə ki, 1918-ci il iyunun 4-də Azərbaycan Xalq Cümhuriyyəti ilə Osmanlı dövləti arasında Batumda müqavilə imzalandı. Müqavilənin şərtlərinə görə, Azərbaycan Xalq Cümhuriyyəti ölkə daxilində ona edilən təcavüzü aradan qaldırmaq üçün Osmanlı dövlətindən kömək ala bilərdi. Azərbaycan Xalq Cümhuriyyətinin bu müraciətinə müsbət cavab verən Osmanlı hökuməti Nuru Paşanın rəhbərliyi ilə təşkil olunmuş Qafqaz İslam Ordusunu Azərbaycana göndərmiş oldu.

1918-ci il iyunun sonu - iyulun əvvəllərində Qafqaz İslam Ordusu Şaumyanın 20 minlik ordusu ilə ölüm-dirim savaşında qalib çıxdı. Bakı Soveti qüvvələrinin məğlub edilməsi ilə Bakının azad edilməsi uğrunda istiqlal mübarizəsi başlandı. Hadisələr bu şəkildə uzun müddət davam edə bilmədi. Birinci Dünya müharibəsinin iştirakçısı olan Osmanlı dövləti Mudros barışığına görə məğlub dövlət kimi Cənubi Qafqazı, o cümlədən, Azərbaycanı tərk etməyə məcbur oldu. Antanta qüvvələri adından general Tomsonun rəhbərliyi altında ingilis qoşunları 1918-ci il noyabrın 17-də Bakıya daxil oldular. Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyəti ilə bağlı yaranan çətinlikləri təhlil edən Ümummilli Lider Heydər Əliyev öz məruzəsində bildirir: "Azərbaycanın ətrafında və daxilində gedən proseslər bu respublikanın və hökumətin öz normal fəaliyyətini davam etdirməsinə imkan verməmişdir. Rusiyadakı bolşevik hökuməti keçmiş çar Rusiyasının bütün ərazisində bolşevik üsul-idarəsini qurmağa cəhd göstərərək, Azərbaycanda istiqlalçılıq hərəkətlərinə başlamışdı. Respublikanın daxilində o cəhdləri dəstəkləyən qüvvələr azərbaycanlı olmamışlar. Eyni zamanda, Cümhuriyyətin hökumətində və onun yaratdığı parlamentdə də daxili ziddiyyətlər və çəkişmələr onun süqut etməsinə gətirib çıxarmışdır".

Azərbaycan Xalq Cümhuriyyətinin süqutunun obyektiv səbəblərinin təhlilini verən Ulu Öndər Heydər Əliyev qeyd edir ki, güclü xarici müdaxilələrə məruz qalan Xalq Cümhuriyyəti belə şəraitdə yaşaya bilməzdi. Mən bir daha deyirəm ki, "Xalq Cümhuriyyətinin süqutu onun rəhbərlərinin günahı deyil, Cümhuriyyətin süqutunun əsas səbəbi sovet qırmızı ordusunun Azərbaycana daxil olması və Cənubi Qafqazı işğal etməsi idi". Azərbaycan Xalq Cümhuriyyətinin 80 illiyinə həsr olunmuş təntənəli mərasimdə Ulu Öndər Heydər Əliyev 2 ilə qədər fəaliyyət göstərmiş milli hökumətin dövlətçilik tariximizdə tutduğu yerə xüsusi qiymət vermişdir: "1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin yaranması Azərbaycan xalqının həyatında tarixi hadisə olmuşdur və xalqımızın dövlətçilik salnaməsinin parlaq səhifələrindən biridir". Ümummilli Lider Heydər Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətinə qiymət verməklə yanaşı, XX əsr Azərbaycan tarixini dövrlərə bölərək qeyd edir: "Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasından keçən 80 il dörd mərhələyə bölünə bilər: birinci - 1918-20-ci illər-Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyət göstərdiyi illər; ikinci - 1920-1922-ci illər - Azərbaycan Sovet Sosialist Respublikasının hakim olduğu illər; üçüncü - 1922-1991-ci illər-Azərbaycanda totalitar rejim, kommunist ideologiyası şəraitində yaşadığımız dövr; dördüncü-1991-ci ilin sonundan- dekabrından başlayaraq, Sovetlər İttifaqının dağılması ilə əlaqədar Azərbaycanın dövlət müstəqilliyinin elan edilməsi günündən indiyədək keçən dövrdür".

Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ilə bağlı mövcud tarixi şəraitə nəzər salan Ümummilli Lider Heydər Əliyev qeyd edir ki, Birinci Dünya müharibəsinin başa çatması, rus çarizminin süqutu, Rusiyada Oktyabr çevrilişi və ondan sonra yaranmış gərgin vəziyyət, sovet hakimiyyətinin Rusiyanın keçmiş ərazisinin hamısına lazımi qədər nəzarət edə bilməməsi Cənubi Qafqazda mövcud olan siyasi qüvvələrin qızğın fəaliyyəti Azərbaycan Xalq Cümhuriyyətinin yaranması üçün əlverişli şəraiti təmin etmişdir. Belə bir Cümhuriyyəti yaratmaq üçün xalqımızın qabaqcıl düşüncəli ziyalılara ehtiyacı var idi". XIX əsrin sonu-XX əsrin əvvəllərində Azərbaycandan kənarda təhsil alan kifayət qədər ziyalılarımız var idi. Onların düşüncəsində və amalında Azərbaycanda demokratik bir cəmiyyətin yaranması problemi mövcud idi. Bununla bağlı Ulu Öndər Heydər Əliyev qeyd edir: "Bu ziyalılar öz intellektual potensialı, öz xalqına, millətinə olan qayğısı, sədaqəti ilə Azərbaycanda XX əsrin əvvəlində gedən proseslərdə iştirak etmiş və Xalq Cümhuriyyətini yaratmışdılar". Ulu Öndər Heydər Əliyev tarixi şəraitlə yanaşı, XX əsrin əvvəllərində Azərbaycan ədəbi mühitinə də nəzər salaraq, onun xarakteristikasını vermişdir: "Əlibəy Hüseynzadə, Əhməd bəy Ağayev, Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir, Üzeyir Hacıbəyov və başqaları o illərdə yaratdıqları əsərləri ilə xalqımızda milli şüurun oyanmasına, milliliyin yüksəlməsinə böyük təsir göstərmişlər"".

***Vahid Ömərov,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

## *Bu vitamin yuxuları uzun müddət yadda saxlamağa kömək edir...*



Avstraliyanın Adelaida Universiteti alimlərinin apardıqları tədqiqatın nəticələri "Perceptual and Motor Skills" jurnalında dərc edilib. Alimlər ölkənin müxtəlif regionlarından olan 100 nəfərin iştirakı ilə eksperiment keçirib-lər. İştirakçılar beş gün ərzində yatağa girməzdən əvvəl içərisində 240 milliqram B6 vitamini olan kapsul və ya plasebo qəbul ediblər. Bu zaman nə alimlər, nə də iştirakçılar kimin nə qəbul etdiyini bilməyiblər.

Modern.az xəbər verir ki, əlavələr qəbul edən iştirakçıların sözlərinə görə, onlar gördükləri yuxuları adətən yadda saxlaya bilmirdilər. Lakin eksperimentin sonunda vəziyyət qəti surətdə dəyişib.

Tədqiqatın müəlliflərindən biri olan Denholm Espinin sözlərinə görə, vitamin iştirakçıların yuxusunu daha parlaq, həqiqətəuyğun və ya qeyri-adi etmir, onların yuxusunun digər aspektlərinə təsir göstərmir. Vitamin sadəcə olaraq, yuxuları daha yaddaqalan edib. Lakin plasebo qəbul edənlər ertəsi günü pis yatmalarından və ayılandan sonra özlərini yorğun hiss etmələrindən şikayətləniblər.

D.Espi deyir: "İnsan orta hesabla ömrünün 6 ilini yuxuda keçirir. Əgər biz yuxularımızın başa düşülməsinə təsir göstərə bilsək, yuxuda olduğumuz vaxtdan daha səmərəli istifadə edə bilərik. Dərk edilən yuxugörmə zamanı, sizə elə gəlir ki, yatmısınız, lakin yuxu davam edir. Bu, qorxulu yuxuları aradan qaldırmağa, fobiyanı sağaltmağa, problemləri kreativ həll etməyə, hətta fiziki zədələrdən sonra bərpaya kömək edə bilər. Yuxuları dərk etməkdən ötrü, ilk növbədə, onları müntəzəm olaraq yadda saxlamağı öyrənmək vacibdir. Tədqiqatlar göstərir ki, məqsədəçatma vasitələrindən biri B6 vitaminidir".

Yuxuların yadda qalmasına təsir edən biomexanizmlərin B6 vitamininin tərkibində olması hələ ki, məlum deyil. B6 vitamini ilə (piridoksin) kəpəkli dənli ərzaqlar, paxlalar, banan, avokado, ispanaq, kartof, süd, pendir, yumurta, mal əti, qaraciyər, balıq zəngindir. Espinin sözlərinə görə, o, həmkarları ilə ərzaq məhsullarındakı B6 vitamininin yuxuların yadda saxlanılmasına təsir etməsini aydınlaşdırmağı planlaşdırır.

## *Gədəbəydə avtovağzaldan avtomobil qaçıran şəxslər saxlanılıb*



Mayın 2-də Gədəbəy rayonunun Soyuqbulaq kənd sakini Məqsəd Qurbanov rayon polis şöbəsinə ərizə ilə müraciət edərək avtovağzaldan ona məxsus VAZ 2121 markalı avtomobilin tanımadığı şəxslər tərəfindən qaçırıldığını bildirib. Daxili İşlər Nazirliyinin mətbuat xidmətinin Gəncə regional qrupundan AZƏRTAC-a bildiriblər ki, faktla bağlı Gədəbəy Rayon Polis Şöbəsində əməliyyat-axtarış tədbirlərinə başlanılıb. Avtomobilin yerinin müəyyənləşdirilməsi istiqamətində həyata keçirilən tədbirlər nəticəsində məlum olub ki, vətəndaşa məxsus avtomobili Gədəbəy rayon sakinləri Əfqan Əliyev və Hafiz Abdullayev qaçırıblar. Saxlanılan şəxslər ilkin ifadələrində avtomobili rayon ərazisində sürmək məqsədilə qaçırdıqlarını deyiblər. Faktla bağlı araşdırmalar davam etdirilir.

**ELAN**

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Filologiya fakültəsinin ingilis dili ixtisasının IV kurs tələbəsi Yediyarova Seyranə Gündüz qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

## "Liverpul" Çempionlar Liqasının finalında!



Futbol üzrə UEFA Çempionlar Liqasında ikinci finalçının adı məlum olub. Belə ki, cavab matçında "Roma" və "Liverpul" üz-üzə gəliblər. Dramatik məcrada keçən görüş meydan sahiblərinin 4:2 hesablı qələbəsi ilə başa çatıb. Lakin ilk oyunda rəqibini 5:2 hesabı ilə üstələyən İngiltərə təmsilçisi finala yüksəlib. "Real" - "Bavariya" matçında olduğu kimi bu oyunda da kobud hakim səhvi qeydə alınıb. Sloveniyalı referi Damir Skomina meydan sahiblərinin iki penaltisini verməyib.

Qeyd edək ki, "Liverpul" mayın 26-da Ukraynanın paytaxtı Kiyev şəhərində keçiriləcək finalda "Real"la üz-üzə gələcək. "Liverpul" 10 ildən sonra, "Real" isə ardıcıl 3-cü il finalda oynayacaq.




## İki qadın güləşçimiz Avropa çempionatının yarımfinalına yüksəlib

Rusiyanın Kaspiysk şəhərində böyüklər arasında güləş üzrə Avropa çempionatı keçirilir. AZƏRTAC xəbər verir ki, dördüncü yarış günündə 53, 57, 62, 65 və 72 kiloqram çəki dərəcələrində qadın güləşçilər mübarizə aparırlar.

Turnirdə 57 kiloqram çəki dərəcəsində mübarizə aparan Alyona Kolesnik ilk görüşündə Türkiyə, ikinci görüşündə ötən ilin Avropa çempionu olan Norveç idmançısını tam üstünlüklə məğlub edərək yarımfinala yüksəlib. Digər güləşçimiz Elis Manolova (65 kq) Çexiya və Macarıstan təmsilçilərinə qalib gələrək yarımfinala adlayıb.

## Çempionlar Liqasının final oyunu üçün 40 min 700 bilet satışa çıxarılacaq




Futbol üzrə Çempionlar Liqasının finalında çıxış edəcək klubların hər birinə UEFA 17 min bilet verəcək. Kiyevdəki 63 min tamaşaçı tutumuna malik Olimpiya stadionunda keçiriləcək həlledici qarşılaşmaya 40 min 700 biletin satışa çıxarılacağı planlaşdırılır. Digər yerlər isə KİV-ə, sponsorlara və UEFA-ya üzv olan milli assosiasiyalara ayrılacaq. Qeyd edək ki, mayın 26-da keçiriləcək final oyununda "Real Madrid" və "Liverpul" komandaları üz-üzə gələcəklər.

## "Bavariya"dan Dibala üçün 100 milyonluq təklif



"Yuventus"un yarımmüdafiəçisi Paulo Dibala mövsümün sonunda İtaliyadan ayrıla bilər. Qol.az-ın "Bild" nəşrinə istinadən yaydığı xəbərə görə, "Bavariya" argentinalı futbolçunun xidmətində maraqlıdır. Hücum xəttini gücləndirmək istəyən Münhen klubu Dibalanı bu yay heyətinə qatmaq niyyətindədir. Almanların ulduz futbolçu üçün qarşı tərəfə 100 milyon avro ödəməyə hazır olduqları bildirilir. Qeyd edək ki, Dibala 2015-ci ildən "Yuventus"da çıxış edir.

## Türkiyə Super kuboku harada keçiriləcək?



"Beşiktaş" klubunun prezidenti Fikrət Orman ölkə kubokunun və Super kubokunun Türkiyədən kənarda keçirilməsinin tərəfdarı olduğunu açıqlayıb. SİA-nın məlumatına görə, bir müddət öncə paytaxtımıza səfər etmiş İstanbul klubunun prezidenti reklam üçün belə oyunların kənarda keçirilməsini dəstəkləyib: "Ölkədən kənarda oyunlar keçirilməlidir. Türkiyə kubokunun finalını və Super kubokunu buna aid etmək olar. Reklam işləri üçün vacib amildir". Qeyd edək ki, bu il Türkiyə kubokunun finalı "Diyarbakır" stadionunda keçiriləcək. Super kubok matçının yeri isə açıqlanmayıb. Türkiyə mətbuatında bir müddət əvvəl Bakı variantları yayılmışdı.

*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**